

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 iyul tarixli 2224 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

2



Səhiyyə ilə bağlı bəzi qanunlara dəyişikliklər edildi

3



Koronavirus xəstələrinə yardım göstərən tibb işçilərinin maaşına əlavənin müddəti uzadılıb

3


# TİBB qəzeti

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi

№ 07-08 (791) 30 aprel 2024-cü il | Qəzet 1991-ci ildən nəşr olunur | www.tibbqazeti.az


## Qəbələ Rayon Mərkəzi Xəstəxanası istifadəyə verilib



2

## Azərbaycan — Qırğızıstan sənədlərinin imzalanması mərasimi olub



2

## Milli Məclis «Dərman vasitələri haqqında» Qanuna dəyişiklikləri müzakirə edib



3

## Bakıda Birinci Türk Dövlətləri Kardioloji Qurultayı keçirilib




8






### *Aforizm*

*Əvəzolunmazlar yoxdur,*
*ancaq təkrarolunmazlar var.*
*Pablo Pikasso*



# Azərbaycan — Qırğızıstan sənədlərinin imzalanması mərasimi olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun iştirakı ilə Azərbaycan — Qırğızıstan sənədlərinin imzalanması mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov «Azərbaycan Respublikası və Qırğız Respublikasının Dövlətlərarası Şurasının ikinci iclasının Qərarı»nı və «Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun Birgə Bəyannaməsi»ni imzalayıblar.

Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev və Qırğız Respublikasının səhiyyə naziri Alımkadır Beyşenaliyev «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Qırğız Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu imzalayıblar.

Mərasimdə həmçinin iki ölkənin hökumətləri arasında 2024-2029-cu illər üzrə Əməkdaşlıq Proqramı, təhsil və elm sahəsində, eləcə də miqrasiya sahəsində əməkdaşlıq haqqında Sazişlər, Energetika nazirlikləri arasında energetika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu, Ədliyyə nazirlikləri arasında hüquqi sahədə qarşılıqlı fəaliyyət haqqında Saziş və bir sıra digər sənədlər — ümumilikdə 18 sənəd imzalanıb.

# Qəbələ Rayon Mərkəzi Xəstəxanası istifadəyə verilib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 160 çarpayılıq Qəbələ Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, səhiyyə naziri Teymur Musayev dövlət başçısına xəstəxanada yaradılan şərait barədə məlumat verib.

Bildirilib ki, binanın inşasına 2016-cı ildə başlanılıb və tikinti işləri 2023-cü ildə başa çatdırılıb. Xəstəxananın yerləşdiyi ərazinin ümumi sahəsi 4,9 hektardır. Tibb ocağının altımərtəbəli əsas binası üç blokdan ibarətdir. Bu səhiyyə müəssisəsində terapiya, uşaq xəstəlikləri, nevrologiya, ümumi cərrahiyyə, ginekologiya, travmatologiya, LOR, infeksion xəstəliklər, şüa-diaqnostika, qəbul, laboratoriya, təcili tibbi yardım, doğum, doğuşdan sonrakı fizioloji şöbələr və hamiləliyin patologiyası şöbəsi də fəaliyyət göstərəcək.

Xəstəxana müasir tələblərə cavab verən tibbi avadanlıqla, o cümlədən maqnit rezonans tomoqrafiyası (MRT), çoxkəsimli kompüter tomoqrafiyası (KT), rəqəmsal stasionar ultrasəs müayinə cihazı, rəqəmsal teleskopik rentgen cihazı və rəqəmsal DR rentgen qurğusu ilə təchiz olunub.

Ərazidə əsas korpusla yanaşı, Gigiyena və Epidemiologiya Mərkəzi, Yoluxucu Xəstəliklər Korpusu, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin rayon şöbəsi üçün binalar da tikilib.

Xəstəxananın həyətində geniş yaşıllıq zolağı salınıb.

Burada yaradılan şəraitdən görünür ki, vətəndaşların hərtərəfli tibbi xidmətlə təmin edilməsi, onların müalicə və müayinə işinin yüksək səviyyədə təşkili, gələcəyimiz olan uşaqların sağlam yetişməsi istiqamətində icra edilən layihələr dövlətimizin başçısının daim diqqətində və nəzarətindədir. Bu cür müasir səhiyyə müəssisəsinin istifadəyə verilməsi yalnız Qəbələ sakinlərinə deyil, bütövlükdə region əhalisinə hərtərəfli tibbi xidmət göstərməyə imkan yaradır.

# «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 31 may tarixli 896-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 1997-ci il 25 iyul tarixli 622 nömrəli, «Gənclər siyasəti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında» 2003-cü il 5 iyun tarixli 878 nömrəli, «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2013-cü il 29 oktyabr tarixli 790-IVQD nömrəli Qanununun tətbiqi haqqında» 2013-cü il 25 noyabr tarixli 38 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 iyul tarixli 2224 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

«Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 31 may tarixli 896-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 1997-ci il 25 iyul tarixli 622 nömrəli, «Gənclər siyasəti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında» 2003-cü il 5 iyun tarixli 878 nömrəli, «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2013-cü il 29 oktyabr tarixli 790-IVQD nömrəli Qanununun tətbiqi haqqında» 2013-cü il 25 noyabr tarixli 38 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 iyul tarixli 2224 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 7, maddə 949 (Cild I) 5.1-ci bəndindən «Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla» sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 29 aprel 2024-cü il*

# Səhiyyə ilə bağlı bəzi qanunlara dəyişikliklər edildi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Məclisin qəbul etdiyi ««Qida təhlükəsizliyi haqqında» Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə» Qanunu imzalayıb.**

Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu, 11-ci, 15-ci, 16-cı və 20-ci bəndləri rəhbər tutulmaqla dəyişiklik edilən sənədlər arasında səhiyyə qanunvericiliyinə aid qanunlar da var.

Belə ki, yeni qəbul edilən Qanunun 8-ci maddəsinə əsasən, «Sanitariya-epidemioloji salamatlıq haqqında» Azərbaycan Respublikasının Qanununda 28-1-ci maddənin mətnində «ərzaq» sözü «qida» sözü ilə əvəz edilib. 34-cü maddənin 1-ci hissəsində 1-ci, 3-cü, 7-9-cu bəndlərdə, 39-cu maddənin 5-ci abzasında «qida məhsullarının və xammalının istehsalı, daşınması, saxlanması və satışı» sözləri «qida zənciri» sözləri ilə əvəz olunub. Həmçinin 34-cü maddənin 6-cı bəndindən, 39-cu maddənin 4-cü, 8-ci və 10-cu abzaslarından «və xammalı» sözləri çıxarılıb.

Yeni qəbul edilən Qanunun 20-ci maddəsi «Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında» Qanuna həsr olunub. Bu Qanunun 2-ci maddəsində «Yeyinti məhsulları» sözləri «Qida təhlükəsizliyi» sözləri ilə əvəz edilib. 5.0.5-ci maddə aşağıdakı redaksiyada verilib:

«5.0.5. «Qida təhlükəsizliyi haqqında» Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə uyğun olaraq yodlaşdırılmış duzun istehsalı, emalı, dövriyyəsi və utilizasiyası şərtlərini müəyyən edən qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların məcburiliyi.»;

7.2-ci maddədə «istehsalı, daşınması, saxlanması, qablaşdırılması, etiketləşdirmə və satış» sözləri «istehsalı, emalı, dövriyyəsi və utilizasiyası» sözləri ilə əvəz edilib.

8.1-ci maddə aşağıdakı redaksiyada verilib:

«8.1. Azərbaycan Respublikasında yodlaşdırılmış duzun istehsalı, emalı, dövriyyəsi və utilizasiyasını həyata keçirən obyektlər (subyektlər) «Qida təhlükəsizliyi haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qeydiyyata alınır və ya təsdiq edilir.».

8.2-ci maddədə birinci cümlədən «müvafiq qaydada tanınmış və ya» sözləri çıxarılıb və həmin cümlədə «qida təhlükəsizliyi (sağlamlıq) sertifikatına» sözləri «idxal sağlamlıq aktına» sözləri ilə əvəz olunub, həmçinin ikinci cümlə çıxarılıb.

11-ci maddənin mətni aşağıdakı redaksiyada verilib:

«Yodlaşdırılmış duzun istehsalı, emalı, dövriyyəsi və utilizasiyasını həyata keçirən hüquqi və fiziki şəxslər, habelə bələdiyyə, dövlət orqanları (qurumları) qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərini pozduqda, insanların sağlamlığına vurduqları zərəri normativ hüquqi aktlarla müəyyən olunmuş qaydada ödəməyə borcludurlar.».

Yeni qəbul edilən Qanunun 23-cü maddəsinə görə, «Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında» Qanunun 3.0.7-ci maddəsində «diabetik ərzaq» sözləri «xüsusi təyinatlı qida» sözləri ilə əvəz edilib.

# Koronavirus xəstələrinə yardım göstərən tibb işçilərinin maaşına əlavənin müddəti uzadılıb

**Azərbaycanın Baş naziri Əli Əsədov koronavirus xəstələrinə yardım göstərən tibb işçilərinin əməkhaqqına əlavənin ödənilməsi müddətinin uzadılması ilə bağlı iki Qərar imzalayıb.**



AZƏRTAC xəbər verir ki, birinci sənəd «Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında Nazirlər Kabinetinin Qərarıdır. Bu dəyişikliyə görə, COVID-19-la mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına verilən əlavənin müddəti 2024-cü il iyulun 1-dək uzadılıb.

Qəbul edilmiş ikinci sənədə əsasən, «Bakı Şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə» Qərarda dəyişiklik edilib.

Yeni Qərara əsasən, COVID-19 infeksiyasına yoluxmuş xəstələrə Bakı Şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına əlavələr də iyulun 1-dək ödəniləcək.

# Nazirlər Kabineti xəstəlik vərəqələrinin tərtib olunmasının yeni qaydalarını müəyyən edib

**Baş nazir Əli Əsədov ««Xəstəlik vərəqələrinin verilməsi və müalicə-sağlamlıq məqsədləri üçün ödənişlərin təyin edilməsi və verilməsi qaydalarının təsdiqi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 8 yanvar tarixli 9 nömrəli Qərarında dəyişiklik edilməsi barədə» Nazirlər Kabinetinin Qərarını imzalayıb.**

Sənədə əsasən, «Sığortaolunanlar üçün xəstəlik vərəqələrinin elektron sənəd formasında tərtib edilməsi qaydası haqqında təlimat» təsdiq edilib.

Qərara əsasən, Səhiyyə Nazirliyinə həvalə olunub ki, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiya və arxivləşdirilməsi Qaydaları»nın tələbləri nəzərə alınmaqla, xəstəlik vərəqələrinin elektron sənəd formasında «Vahid Səhiyyə İnformasiya Sistemi» vasitəsilə Elektron Hökumət İnformasiya Sisteminə ötürülməsi üçün Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə zəruri tədbirlər görsün.

Qərar 2024-cü il mayın 1-dən qüvvəyə minir.

# Milli Məclis «Dərman vasitələri haqqında» Qanuna dəyişiklikləri müzakirə edib




Aprel ayında Milli Məclisin yaz sessiyasının növbəti iclasları keçirilib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, bu ayın ilk plenar iclasında 22 məsələ müzakirə olunub. O cümlədən, birinci oxunuşda müzakirəyə çıxarılan qanun layihələrindən biri «Dərman vasitələri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi olub.

Qanun layihəsini təqdim edən Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov bildirib ki, layihəyə əsasən, qüvvədə olan 14 qanuna 36 dəyişiklik təklif olunur. Dəyişikliklərdə bir sıra terminlərin dəqiqləşdirilməsi, o cümlədən «həkim reseptləri» sözlərinin «resept», «dərman vasitələri» sözlərinin «dərman və tibb vasitələri», «milli protokol» sözlərinin «klinik protokol», «normativ-texniki sənəd» sözlərinin «texniki-normativ hüquqi akt» və bu qəbildən olan söz və ifadələrlə əvəz edilməsi nəzərdə tutulur.

Müvafiq komitələrin rəyləri dinlənildikdən sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Parlamentin növbəti iclasında Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov «Dərman vasitələri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Qanunun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihəsini ikinci oxunuşda təqdim edib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Əmək və sosial siyasət komitəsinin üzvü İlham Məmmədov, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məsələ ilə əlaqədar bu komitələrin müsbət rəy verdiyini bildirdikdən sonra qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

Yaz sessiyasının növbəti plenar iclasında Səhiyyə komitəsi sədrinin müavini Rəşad Mahmudov qanun layihəsini üçüncü oxunuşda təqdim edib.

Müvafiq komitələrin rəyləri dinlənildikdən sonra qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

# Milli Məclisdə sağlam ailə modeli mövzusunda dinləmə keçirilib

**Milli Məclisdə parlamentin Ailə, qadın və uşaq məsələləri, Səhiyyə, Təbii ehtiyatlar, energetika və ekologiya komitələrinin birgə təşkilatçılığı ilə «Sağlam ailə modelinin hüquqi aspektləri — Yaşıl dünya müstəvisində» mövzusunda ictimai dinləmə keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, deputatların, əlaqədar qurumların rəhbər şəxslərinin, qeyri-hökumət təşkilatları nümayəndələrinin iştirakı ilə keçən tədbiri giriş nitqləri ilə komitə sədrləri Hicran Hüseynova, Əhliman Əmiraslanov və Sadiq Qurbanov açıblar.

**Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Hacıqabul rayonunda yenidən qurulacaq Şirvan suvarma kanalının təməlqoyma mərasimində çıxışına toxunaraq qeyd edib ki, dünyada baş verən hadisələr, ətraf mühit və iqlim dəyişiklikləri bütövlükdə bəşəriyyəti düşündürür: «Artıq təsdiq olunub ki, insanların gələcəyi, bütövlükdə planetimizin varlığı ekoloji problemlərin həllindən asılıdır». İqlim dəyişikliklərinin qadın və kişilərə müxtəlif təsirlərindən danışan komitə sədri bu sırada sağlamlıq, xüsusilə də reproduktiv sağlamlıq, ərzaq və qida təhlükəsizliyi, ekoloji mühitin müdafiəsi, sosial-iqtisadi məsələlər, məskunlaşma və digər problemləri qeyd edib. Vurğulayıb ki, beynəlxalq ictimaiyyət iqlim dəyişikliyi prosesinin sosial aspektləri nəzərə alınmadan, müxtəlif insan qruplarına təsiri qiymətləndirilmədən, ümumilikdə, qadın və kişilərin bərabər iştirakı olmadan bu problemin həllinin qeyri-mümkünlüyünü etiraf edir.

2024-cü ilin Azərbaycanda «Yaşıl dünya naminə həmrəylik ili» elan edildiyini deyən Hicran Hüseynova ölkəmizin işğaldan azad edilmiş torpaqlarının «Yaşıl enerji» zonası elan olunmasının əhəmiyyətindən söz açıb. Bu il Azərbaycanın COP 29 kimi mötəbər tədbirə ev sahibliyi edəcəyini xatırladan natiq parlamentin bu proseslərdən kənarda qalmadığını diqqətə çatdırıb. Sağlam ailə modelinin inkişafı, ekoloji mühitin insan sağlamlığına təsiri, qida təhlükəsizliyi, ətraf mühitin qorunması, əhalinin ekoloji təhsili və maarifləndirilməsi sahəsində zəngin qanunvericilik bazasının mövcud olduğunu söyləyən komitə sədri bu bazanın yeni çağırışlara uyğun olaraq davamlı şəkildə təkmilləşdirildiyini bildirib.

**Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov** ölkə Prezidenti İlham Əliyevin 2024-cü ili Azərbaycanda «Yaşıl dünya naminə həmrəylik ili» elan etməsinin mühüm əhəmiyyət kəsb etdiyini bildirib. Bu il Azərbaycanda baş tutacaq COP 29 çərçivəsində görüləcək işlərə toxunan komitə sədri qeyd edib ki, bu gün ölkəmizdə ekoloji sağlamlığın təmin olunması, gələcək nəsillərə təmiz ekoloji mühitin ötürülməsi məqsədilə müvafiq addımlar atılır. Yaşıl enerjiyə keçidə hədəflənən qabaqcıl yanaşmaların tətbiqindən söz açan Əhliman Əmiraslanov Azərbaycanın yaxın gələcəkdə külək və günəş kimi bərpa olunan enerji mənbələrindən istifadəyə keçid etməsinin əhəmiyyətindən danışıb.

Ümumdünya Səhiyyə Təşkilatının statistik məlumatlarını xatırladan komitə sədri bildirib ki, dünyada mövcud olan xəstəliklərin əhəmiyyətli qismi ətraf mühitin çirklənməsi ilə sıx əlaqədardır. Dünya əhalisinin sağlamlığına mənfi təsir göstərən sürətli iqlim dəyişmələri, ozon təbəqəsinin dağılması kimi amilləri qeyd edən Əhliman Əmiraslanov qlobal sənayeləşmənin səbəb olduğu ətraf mühitin çirkləndirilməsində sənaye tullantılarının, həmçinin tibbi tullantıların mənfi təsirlərindən söz açıb, dünyada artan yoluxucu xəstəliklərin inkişafında su ehtiyatlarının və torpağın çirklənməsinin mənfi rolunu qeyd edib: «Ətraf mühitdə baş verən hər bir hadisə insan orqanizminə təsir edir. İnsanlarda baş verən bütün xəstəliklərin 25 faizdən çoxu ətraf mühitlə, onun çirklənməsi ilə, atmosferdəki mənfi hallarla bağlıdır. Bu, təsdiq olunmuş statistikadır».

Havanı çirkləndirən əsas səbəblər kimi sənayeləşməni, nəqliyyat vasitələrinin sayının artmasını göstərən komitə sədri vurğulayıb ki, beynəlxalq səviyyədə yürüdülən yaşıl dünya siyasəti, bu istiqamətdə görülən işlər gələcəkdə atmosferin daha çox çirklənməsinin qarşını almağa xidmət edəcək.

Parlamentin **Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov** ölkəmizdə texnoloji sıçrayışlara əsaslanan dördüncü sənaye inqilabı çərçivəsində ekoloji təmizliyin təmin olunmasında texnoloji yeniliklərin tətbiqinin əhəmiyyətini vurğulayıb, bu istiqamətdə atılan addımlardan danışıb. Son dövrlərdə qəbul olunmuş normativ hüquqi aktlardan söz açan Sadiq Qurbanov ekoloji mədəniyyətin, ekoloji maarifləndirmənin formalaşmasında gənc nəsil üçün ekoloji tərbiyənin, təhsil konsepsiyasının, strategiyasının hazırlanmasının vacibliyini, bu sahədə ailə faktorunun, həmçinin məktəblərdə təlim-tərbiyə işinin müvafiq şəkildə qurulmasının xüsusi rolunu qeyd edib.

Sonra **səhiyyə nazirinin müavini İlqar Qasımov** mövzu ilə bağlı bu sahədə görülən işlər barədə ətraflı məlumat verib, Azərbaycanda ana və uşaq sağlamlığına göstərilən dövlət qayğısı barədə danışıb. Ətraf mühitin uşaqların sağlamlığına təsirinin qiymətləndirilməsi məqsədilə hazırlanan proqram barədə məlumat verən nazir müavini mənfi təsirlərin aradan qaldırılması, nəzarətə götürülməsi istiqamətində görülən işlərdən söz açıb.

İlqar Qasımov bildirib ki, Azərbaycanın 10 milyondan çox olan əhalisi arasında 17 yaşadək uşaq və yeniyetmələrin sayı 2 633 054 nəfərdir. Aparılan təhlilə əsasən, son 5 ildə 0-13 yaşlı uşaqların ümumi xəstələnmə göstəriciləri azalsa da, tənəffüs və həzm sistemləri, onkoloji xəstəliklər, psixoloji və davranış pozuntuları, göz və qan dövranı xəstəlikləri üzrə xəstələnmə tezliyi artıb. Həmçinin 14-17 yaşlı yeniyetmələr arasında ümumi xəstələnmə göstəriciləri və bütün sistemlər üzrə xəstələnmələrin rastgəlmə tezliyi də son 5 ildə artıb.

«14-17 yaş daha sağlam dövr hesab edilsə də, mütəxəssislər yeniyetməlik dövrünün gələcəkdə gənclərin sağlamlığı üçün son dərəcədə vacib olduğunu nəzərə alaraq, bu dövrdə sağlamlıq məsələsinə xüsusi diqqət yetirilməsini tövsiyə edirlər. Məhz bu yaşda insanın sonrakı həyatında sağlamlığına təsir göstərəcək bir çox xroniki xəstəliklər və pis vərdişlər yaranır. On səkkiz yaşadək insanların ən yüksək ümumi xəstələnmə göstəriciləri Abşeron-Xızı və Bakıda qeydə alınıb», — deyə nazir müavini vurğulayıb.

Problemin həlli üçün tələb olunan tədbirlərdən söz açan İlqar Qasımov qeyd edib ki, ölkəmizdə boya qurğuşun miqdarını tənzimləyən qanunvericilik sənədi qəbul edilməli, sirkə essensiyanın sərbəst satışı qadağan olunmalıdır. Həmçinin kəskin və xroniki zəhərlənmələrin qarşısının alınması məqsədilə pestisidlərin, təhlükəli kimyəvi maddələrin və dərman vasitələrinin uşaqlar üçün əlçatan olmasının qarşısını almaq, habelə onların təhlükəsiz utilizasiyasını keçirmək lazımdır.

Səhiyyə nazirinin müavini vurğulayıb ki, ölkəmizdə uşaq və yeniyetmələr arasında artma dinamikası qeyd edilən xəstəliklərin ətraf mühit amilləri ilə əlaqəsi aidiyyəti qurumlarla birlikdə araşdırılmalı, qapalı məkanlarda, uşaq bağçalarında və məktəblərdə havanın çirklənmə göstəricilərinə nəzarət gücləndirilməlidir. Həmin müəssisələrə detektorlar qoyula bilər.

İlqar Qasımov deyib ki, Səhiyyə Nazirliyi UNICEF-in dəstəyi ilə bütün istiqamətlərdə uşaqların sağlamlığı ilə bağlı ötən ilin təhlilini aparıb. «Azərbaycan Tibb Universitetinin kafedraları elmi-tədqiqat mərkəzləri ilə birlikdə ətraf mühitin uşaqların sağlamlığına təsirini araşdırma proqramları üzərində iş aparır», — deyə o əlavə edib.

Dinləmədə **ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva** Azərbaycanın 30 il ərzində məruz qaldığı ekosidin nəticələrindən danışıb, «Yaşıl dünya naminə həmrəylik ili» çərçivəsində görüləcək işlərdən bəhs edib, bu il ölkəmizdə baş tutacaq COP 29 çərçivəsində qadınların qərarvermə prosesində fəal iştirakının əhəmiyyətini vurğulayıb.

**Kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova** kənd təsərrüfatının ətraf mühit və iqlim dəyişikliklərindən ən çox təsirlənən sahə olduğunu və bu təsirin dünyada ərzağa olan tələbatın durmadan artması ilə daha da dərinləşdiyini bildirib. O, torpağın dayanıqlı istifadəsi, pestisid və gübrə istifadəsinin normaları, həmçinin su ehtiyatlarının müasir suvarma texnologiyalarının tətbiqi ilə səmərəli istifadəsinin təmin olunması barədə fikirləri ilə bölüşüb. Ağıllı fermer amilinə toxunan nazir müavini torpaqların və suyun səmərəli istifadəsində insan amilinə diqqəti yönəldib, şüurlu istehsal və istehlakın rolunu vurğulayıb.

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aynur Sofiyeva** hazırda ailə məsələləri ilə bağlı ən narahatedici məqamın boşanmaların sayının artması olduğunu deyib. Ailədaxili münasibətlərdə psixoloji məqamların rolunu qeyd edən Aynur Sofiyeva psixoloji xidmətin lazımi səviyyədə olmadığını, bu xidmətin gücləndirilməsinə böyük ehtiyac olduğunu söyləyib: «Ailə psixoloqu institutunun yaradılması ilə yanaşı, ailə məhkəmələrinin təsis olunması da çox vacibdir».

Tədbirdə çıxış edən Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov, deputatlar Jalə Əliyeva, Asim Mollazadə, Naqif Həmzəyev, Nəsib Məhəmməliyev, İltizam Yusifov, QHT-lərə Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva, Azərbaycan Respublikasının Gənclər Fondunun icraçı direktoru vəzifəsini icra edən Qədir Xəlilov, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Aparatının rəhbərinin müavini Rəşid Rumzadə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında «DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi»nin direktoru Nigar Məmmədova və «EkoSfera» Sosial Ekoloji Mərkəzi İdarə Heyətinin sədri, COP 29 Təşkilat Komitəsinin üzvü Firuzə Sultanzadə dinləmənin əhəmiyyətini qeyd ediblər.

Sağlam ailə modelinin hüquqi aspektlərinə toxunan çıxışçılar əhalinin sağlamlığının müdafiəsinin vacibliyini şərtləndirən amillərindən söz açıblar, ətraf mühitin mühafizəsinin gücləndirilməsinin və ekoloji maarifləndirmənin əhəmiyyətini vurğulayıblar, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı fikir və təkliflərini səsləndiriblər.

Müvafiq komitələrin sədrləri, həmçinin dövlət qurumlarının nümayəndələri deputatların qaldırdığı bir sıra məsələlərə aydınlıq gətiriblər.

Dinləməyə yekun vuran komitə sədri Hicran Hüseynova aparılan fikir mübadiləsinin faydalı olduğunu bildirib.

# Qida təhlükəsizliyinin sağlamlıq konsepsiyasında rolu

## *Milli Məclisdə bu mövzuda ictimai dinləmə keçirilib*

**Milli Məclisin Aqrar siyasət komitəsində «Qida təhlükəsizliyi sistemi və onun vahid sağlamlıq konsepsiyasında rolu» mövzusunda ictimai dinləmə keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirildiyinə görə, tədbiri açan **komitə sədri Tahir Rzayev** belə bir dinləmənin vacibliyini ifadə edib, bildirib ki, bu gün dünyada baş verən iqlim dəyişiklikləri, qida çatışmazlığı, qida zəhərlənmələri, digər problemlər müəyyən çətinliklər yaradır, insanların səhhətinə ciddi təsir göstərir. Komitə sədri vurğulayıb ki, ölkəmizdə qida təhlükəsizliyinin təmin edilməsi istiqamətində ardıcıl olaraq həyata keçirilən tədbirlər dövlət başçısının bu sahəyə göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. O, ölkə Prezidentinin insan amilinə, Azərbaycan vətəndaşının sağlamlığının qorunmasına böyük önəm verdiyini qeyd edib.

Komitə sədri son illərdə ölkədə qida təhlükəsizliyinin təmin edilməsi, qida məhsullarının keyfiyyətinin yaxşılaşdırılması, əhalinin təhlükəsiz və keyfiyyətli qida məhsulları ilə təmin edilməsi, qida məhsullarının təhlükəsizliyinə nəzarət sisteminin səmərəliliyinin daha da artırılması istiqamətində təqdirəlayiq işlərin görüldüyünü deyib. Bildirib ki, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) yaradılması, «Qida təhlükəsizliyi haqqında» Qanunun qəbul edilməsi, bununla bağlı qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində atılan addımlar, beynəlxalq əməkdaşlığın inkişafı bu sahədə fəaliyyətin dövlətin diqqət mərkəzində olduğunu və ictimaiyyət tərəfindən təqdir edildiyini göstərir. Bununla yanaşı, Tahir Rzayev vurğulayıb ki, vətəndaşların sağlamlığı və qida təhlükəsizliyi məsələlərini bir qurumla məhdudlaşdırmaq düzgün deyil. Bu sahədə hər kəs ondan asılı olan məsələləri həll etməlidir.

**Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli** çıxışında mövzunun aktuallığını qeyd edib, qida təhlükəsizliyinin tarladan və fermadan süfrəyə qədər qida zəncirinin bütün mərhələlərini əhatə edən nəzarət sistemi olduğunu söyləyib. Agentliyin rəhbəri 2018-ci ildə fəaliyyətə başlayan Qida Təhlükəsizliyi Agentliyinin vahid sağlamlıq konsepsiyası baxımından fəaliyyəti barədə məlumat verib, Azərbaycan Prezidentinin 29 aprel 2019-cu il tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı», onun icrası üçün müəyyənləşdirilmiş 12 əsas istiqamət üzrə görülmüş işlərdən danışıb.

Qoşqar Təhməzli ölkə ərazisinə idxal olunan yüksək riskli qida məhsulları üzərində dövlət nəzarətinin həyata keçirilməsindən bəhs edib, Agentliyin auditorları tərəfindən aparılan yoxlamalar barədə məlumat verib. Habelə qida məhsullarının zənginləşdirilməsi, heyvan sağlamlığı, yem məhsullarının təhlükəsizliyi, baytarlıq preparatlarının düzgün tətbiqi, bu preparatların insan və heyvan sağlamlığına təsiri, biotəhlükəsizliyin təmin edilməsi ilə bağlı məsələlərə toxunub. AZƏRTAC-ın bildirdiyinə görə, AQTA sədri məlumat verib ki, dəmir defisitli anemiyanın qarşısının alınması məqsədilə buğda ununun zənginləşdirilməsi istiqamətində işçi qrup yaradılıb: «Yaxın günlərdə həmin zənginləşdirmə proseduru həyata keçirilməyə başlayacaq. Razılıq əldə edilmiş çörək istehsalı, un emalı müəssisələrində unun dəmirlə zənginləşdirilməsi prosesi həyata keçiriləcək. Beləliklə, ticarət şəbəkələrində adi unla yanaşı, dəmirlə zənginləşdirilmiş una da rast gələ biləcəyik».

Qoşqar Təhməzli həmçinin Genetik Modifikasiya edilmiş Orqanizmlərlə (GMO) əlaqədar məsələnin vacibliyindən bəhs edib, onun mahiyyəti barədə danışıb, bununla bağlı yayılan məlumatlara münasibət bildirib. Bununla yanaşı, Vahid Sağlamlıq Konsepsiyası ilə bağlı fikirlərini də açıqlayıb.

Parlamentin **Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov** insan sağlamlığının təmin edilməsi üçün sağlam və düzgün qidalanmanın ən zəruri amillərdən olduğunu bildirib. Bir sıra dünya ölkələrində sağlamlıq proqramlarının həyata keçirildiyini, onların əsas şərtlərindən birinin sağlam qidalanma olduğunu deyib. AZƏRTAC-ın verdiyi məlumata görə, müxtəlif xəstəliklərin əmələ gəlməsinin səbəblərindən birinin zərərli qidalanma ilə bağlı olduğunu söyləyən komitə sədri vurğulayıb ki, infeksiyaların, kanserogen maddələrin böyük qismi insan orqanizminə çirklənmiş qidalar vasitəsilə daxil olur: «Hər il yalnız bakterial yoluxmuş qidalar nəticəsində planetimizdə 600 milyon insan xəstələnir. Onlar arasında ölüm göstəricisi kifayət qədər yüksəkdir. İnsanlar arasında ölümə səbəb olan ürək-damar patologiyalarının, onkoloji xəstəliklərin əmələ gəlməsinə dair ciddi tədqiqatların nəticəsi kimi qida ilə bağlı məsələlər birinci sırada dayanır. Onkoloji xəstəliklərin 25 faizinin əmələ gəlməsinin səbəbi qida amilidir. Bədxassəli şişlərin əmələ gəlməsinin əsas səbəblərindən biri transyağlardır. Müxtəlif konservləşdirilmiş, hisə verilmiş ət və balıq məhsullarının, heyvan mənşəli piylərin hər birinin insanda bədxassəli şişlərin əmələ gəlməsində rolu elmi tədqiqatlarla sübut olunub», — deyə Ə.Əmiraslanov vurğulayıb.

Komitə sədri qida istehsalı və emalı sahəsində təhlükəsizlik qaydalarına əməl edilməsinin vacibliyini qeyd edib. İqlim dəyişikliklərinin fəsadlarının da ərzaq məhsullarına mənfi təsir etdiyini bildirib.

**İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili** qida təhlükəsizliyi məsələsinin milli təhlükəsizliyin tərkib hissəsi olduğunu vurğulayıb, bu sahənin hər zaman dövlətin diqqətində olduğunu qeyd edib. Bildirib ki, qida təhlükəsizliyi sahəsində dövlət siyasətinin düzgün həyata keçirilməsi əhalinin sağlamlığının qorunması baxımından böyük əhəmiyyət daşıyır. Komitə sədri həmçinin qida məhsullarının ixracı və idxalı sahəsində nəzarətin önəmindən danışıb. İqtisadi cəhətdən qida təhlükəsizliyinin iki istiqamətdə – insan əməyi amili və sahibkarlıq baxımından qida məhsullarının istehsalı ilə bağlı olduğunu deyib.

**Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov** çıxışında bildirib ki, qida təhlükəsizliyi anlayışı insanların qidaya olan ehtiyaclarını, o cümlədən onların qidanı həm fiziki, həm də iqtisadi baxımdan əldə edə bilmək imkanını özündə ehtiva edir. Ölkə başçısı tərəfindən həyata keçirilən sosial siyasət bu imkanların əldə edilməsi üçün lazımi şəraitin yaradılmasını təmin edir. Komitə sədri qida istehsalı, qida məhsullarından səmərəli istifadənin əhəmiyyətindən danışıb, bununla bağlı maarifləndirmə işinin vacibliyini qeyd edib.

**Kənd təsərrüfatı nazirinin müavini Sarvan Cəfərov** qida məhsullarının təhlükəsizliyinin və keyfiyyətinin təmin olunması ilə bağlı kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində görülən işlər barədə danışıb.

**Dövlət Gömrük Komitəsinin sədr müavini Cavad Qasımov** qida təhlükəsizliyi ilə bağlı məhsulların idxalı və ixracı zamanı sərhəd-keçid məntəqələrində nəzarət tədbirlərinin həyata keçirildiyini bildirib.

**Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev** ölkənin iqtisadi potensialının artırılmasında qida təhlükəsizliyinin təmin olunmasının, əhalinin sağlamlığının qorunmasının vacib amillərdən olduğunu söyləyib. Bu istiqamətdə qanunvericiliyin təkmilləşdirilməsinin əhəmiyyətini qeyd edib.

Səhiyyə Nazirliyinin İctimai səhiyyə və sanitar-epidemioloji nəzarət şöbəsinin müdiri Nəzifə Mürsəlova, İqtisadiyyat Nazirliyinin Antiinhisar və istehlak bazarına nəzarət Dövlət Xidmətinin rəis müavini İlqar Həsənov, Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov çıxış ediblər. Çıxışlarda ölkədə istehsal edilən qida məhsullarının ekoloji cəhətdən təmiz olması, keyfiyyətinin yaxşılaşdırılması, qida təhlükəsizliyinin təmin edilməsi üçün istehlakçılar tərəfindən müvafiq qaydalara riayət edilməsinin vacibliyi qeyd edilib, habelə qida ilə əlaqəli xəstəlik hallarının yayılmasının qarşısının alınması, istehlakçıların sağlamlığının qorunması istiqamətində görülən işlərdən söhbət açılıb.

Milli Məclisin deputatları Fəzail Ağamalı, Məlahət İbrahimqızı, Azər Badamov, Jalə Əliyeva, Razi Nurullayev, Tahir Kərimli, Emin Hacıyev mövzu ilə bağlı fikir və qeydlərini açıqlayıblar. Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli qaldırılan məsələlərə münasibət bildirib.

Dinləmənin sonunda komitə sədri Tahir Rzayev çıxış edərək mövzu ətrafında səmərəli fikir mübadiləsinin aparıldığını söyləyib, iclas iştirakçılarına müzakirələrdə fəallıq göstərdiklərinə görə təşəkkürünü ifadə edib.

# Səhiyyə Nazirliyinin rəhbərliyi görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın xatirəsini ehtiramla yad edib

**Azərbaycan oftalmologiya elminin görkəmli nümayəndəsi, Azərbaycan Elmlər Akademiyasının bu sahədə ilk akademiki, fədakar alim, qayğıkeş insan Zərifə xanım Əliyevanın anadan olmasından 101 il keçir.**



Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, bu münasibətlə nazirliyin rəhbərliyi Fəxri xiyabanı ziyarət edərək, xalqımızın Ümummilli Lideri, müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin məzarı önünə gül dəstələri qoyub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi ehtiramla yad edilib, məzarı önünə əklil qoyulub və tər çiçəklər düzülüb.

Həmçinin görkəmli dövlət xadimi və ictimai xadim Əziz Əliyevin, istedadlı həkim Tamerlan Əliyevin məzarları üzərinə də tər çiçəklər qoyulub.

Akademik Zərifə xanım Əliyevanın tədqiqatları və alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində mühüm mərhələ təşkil edir. Azərbaycan oftalmologiya elmini dünyada tanıtdıran Zərifə Əliyevanın açdığı yol ildən-ilə genişlənir, zəngin irsi, pedaqoji fəaliyyəti dönə-dönə araşdırılır, öyrənilir və neçə-neçə tədqiqat əsərinin mövzusuna çevrilir.

# Səhiyyə Nazirliyində Sankt-Peterburq nümayəndə heyəti ilə görüş keçirilib

**Rusiyanın Sankt-Peterburq şəhərinin mədəniyyət-işgüzar missiyasının Azərbaycanın paytaxtına səfəri çərçivəsində Səhiyyə Nazirliyində Sankt-Peterburqun Səhiyyə Komitəsinin sədr müavini Aleksey Tereşinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**



Nazirliyin mətbuat xidmətindən bildirilib ki, görüşdə **səhiyyə naziri Teymur Musayev** ölkələrimiz arasında səhiyyə və tibb elmi sahəsində səmərəli əməkdaşlığın olduğunu qeyd edib. Teymur Musayev 2021-ci ilin yayında Bakıda Rusiyanın səhiyyə naziri Mixail Muraşkonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşün keçirildiyini xatırladıb. Həmin görüş zamanı ölkələr arasında «Səhiyyə və tibb elmi sahəsində yenilənmiş əməkdaşlıq Sazişi»nin imzalandığını deyib.

Rusiya tərəfinə COVID-19 pandemiyası ilə mübarizədə göstərdiyi dəstəyə görə təşəkkürünü bildirən nazir rusiyalı mütəxəssislərin dəyərli tövsiyələrinin Azərbaycanda epidemioloji vəziyyətin sabitləşməsinə öz töhfəsini verdiyini vurğulayıb.

Teymur Musayev çıxışında Sankt-Peterburqdakı tibb universitetlərinin zəngin elmi-tədqiqat ənənələri ilə tanındığını və illər ərzində görkəmli alimlər yetişdirdiyini xüsusilə qeyd edib. Eyni zamanda, Sankt-Peterburqun Kliniki Elmi-Praktiki Mərkəzlərində ixtisaslaşmış tibbi yardım xidmətlərinin göstərildiyi vurğulanıb.

Sonda Azərbaycanın səhiyyə naziri ikitərəfli əlaqələrin gələcək dinamik inkişafına ümidvar olduğunu bildirib: «Tibb mütəxəssislərinin davamlı peşə təhsili sahəsində müasir metodiki və elmi-praktik təcrübə mübadiləsi üçün bütün imkanlar mövcuddur».

Səmimi qəbula və qonaqpərvərliyə görə minnətdarlığını bildirən **Aleksey Tereşin** belə görüşlərin təcrübə və bilik mübadiləsi baxımından çox vacib olduğunu vurğulayıb. Nümayəndə heyətinin rəhbəri Sankt-Peterburqdakı tibb mərkəzləri və müəssisələrinin fəaliyyəti haqqında da ətraflı məlumat verib. Ürək cərrahiyyəsi, minimal invaziv, torakal cərrahiyyə, onkologiya, urologiya və tibbin digər sahələrində ciddi nailiyyətlərin əldə edildiyini qeyd edən Aleksey Tereşin Azərbaycan Səhiyyə Nazirliyi, eləcə də onun tabeliyində olan elmi-tədqiqat institut və mərkəzləri ilə əməkdaşlığın daha yüksək səviyyəyə qaldırılmasında maraqlı olduqlarını bildirib.

Nümayəndə heyətinin rəhbəri həmçinin qeyd edib ki, səfər çərçivəsində Səhiyyə Nazirliyinin Azərbaycan Tibb Universitetində (ATU) və ATU-nun elmi klinikalarında görüşləri, eyni zamanda, Azərbaycan Tibb Universiteti ilə Sankt-Peterburq Pediatriya Universiteti arasında Əməkdaşlıq Memorandumunun imzalanması nəzərdə tutulub.

Sonda tərəflər prioritet istiqamətlər üzrə əməkdaşlıq məsələlərini müzakirə ediblər.

# «Azərbaycanda psixi sağlamlıq və psixi xəstəliklərdən əziyyət çəkən şəxslərin hüquqları»

## *Bakıda bu mövzuda dəyirmi masa keçirilib*

**Azərbaycan Respublikasının İnsan Hüquqları Üzrə Müvəkkili (Ombudsman) Aparatının təşkilatçılığı ilə «Azərbaycanda psixi sağlamlıq və psixi xəstəliklərdən əziyyət çəkən şəxslərin hüquqları» mövzusuna həsr edilmiş dəyirmi masa keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə açılış nitqi ilə çıxış edən **ombudsman Səbinə Əliyeva** əhalinin sağlamlığının qorunması hüququnun müdafiəsi sahəsində fəaliyyət barədə ətraflı məlumat verib, bu istiqamətdə problemlərin araşdırılması və həlli üçün müvafiq tədbirlərin görüldüyünü bildirib.

Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində psixiatriya müəssisələrində həyata keçirilən monitorinqlərdən danışan müvəkkil bu cür monitorinqlərin mövcud problemlərlə əyani şəkildə tanış olmaq və preventiv tədbirlər görmək baxımından mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırıb. S.Əliyeva bəzi psixiatriya xəstəxanalarında, xüsusilə regionlardakı müəssisələrdə olan bir sıra nöqsanların aradan qaldırılması ilə bağlı müvafiq təklif və tövsiyələrlə aidiyyəti qurumlara müraciət edildiyini deyib.

İkinci Qarabağ müharibəsinin iştirakçılarının postmüharibə dövründə psixiatrik yardımla təminatının önəmindən danışan ombudsman bu məsələnin diqqət mərkəzində olduğunu, təsisatın təşəbbüsü ilə bir qrup müharibə iştirakçısına müvafiq yardımın göstərildiyini vurğulayıb.

Psixi sağlamlığın qorunması istiqamətində ölkəmizdə davamlı tədbirlərin həyata keçirildiyini bildirən Səbinə Əliyeva vətəndaşların hüquqlarının qorunması baxımından müvafiq dövlət orqanlarının həyata keçirdiyi tədbirlərin, proqram və layihələrin ombudsman təsisatı tərəfindən izlənildiyini və təhlil olunduğunu qeyd edib.

*(Davamı 7-ci səhifədə)*

# Səhiyyə Nazirliyində BMT-nin İnkişaf Proqramının rezident nümayəndəsi ilə görüş keçirilib

**Azərbaycan Səhiyyə Nazirliyində Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMT İP) rezident nümayəndəsi Alessandra Rokkasalvo ilə görüş keçirilib.**



Nazirliyin mətbuat xidmətindən bildirildiyinə görə, qonaqları salamlayan səhiyyə naziri Teymur Musayev Azərbaycanın BMT-nin müxtəlif ixtisaslaşmış qurumları ilə səmərəli əməkdaşlıq etdiyini vurğulayıb. Onun sözlərinə görə, «2021-2025-ci illər üçün BMT və Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi» ikitərəfli əməkdaşlığın strateji istiqamətlərini müəyyən edir.

Nazir həmçinin Azərbaycan ilə BMT İP arasında bir sıra istiqamətlərdə, o cümlədən səhiyyə sahəsində də səmərəli əməkdaşlığın olduğunu diqqətə çatdırıb: «Azərbaycanda universal tibbi təminatın təşkili və milli səhiyyə sisteminin pandemiya və kəskin xəstəliklərə qarşı dayanıqlığının artırılması əməkdaşlığımızın əsas istiqamətlərindən biridir».

Teymur Musayev çıxışında mart ayında Azərbaycanın paytaxtında XI Qlobal Bakı Forumunun keçirildiyini xatırladıb: «Bakı Forumu çərçivəsində Azərbaycan Prezidenti BMT-nin İnkişaf Proqramının administratoru Akim Ştayneri qəbul edib. Görüş zamanı dövlət başçısı Akim Ştayneri bu ilin noyabrında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP 29) dəvət edib. Dövlət başçısı Azərbaycanın qazıntı yanacağı ixrac edən ölkə olmasına baxmayaraq, yaşıl keçidin prioritet istiqamət kimi müəyyən edildiyini bildirib».

Sonda Azərbaycanın səhiyyə naziri ikitərəfli münasibətlərin gələcək dinamik inkişafına ümid etdiyini ifadə edib.

Səmimi qəbula və yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən BMT İP-nin rezident nümayəndəsi Alessandra Rokkasalvo son illər Azərbaycanda səhiyyə sisteminin gücləndirilməsi məqsədilə islahatların aparılması istiqamətində mühüm işlərin görüldüyünü qeyd edib.

Alessandra Rokkasalvo Dayanıqlı İnkişaf Məqsədlərinin reallaşmasında ölkəmizin dayanıqlı inkişaf üzrə milli prioritetlərinə uyğun olaraq yaşıl artım və rəqəmsal transformasiyanın həyata keçirilməsi istiqamətində BMT-nin İnkişaf Proqramının Azərbaycanla sıx əməkdaşlığa hazır olduğunu bildirib.

Görüşdə həmçinin 44 günlük Vətən müharibəsində işğaldan azad olunmuş ərazilərdə aparılan quruculuq işlərində əməkdaşlıq perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Səhiyyə naziri Azərbaycanın bütün şəhər və rayonlarında «İmmunlaşdırma həftəsi»nin keçirilməsi ilə bağlı Əmr imzalayıb

**Azərbaycanın səhiyyə naziri Teymur Musayev aprelin 21-27-də ölkəmizin bütün şəhər və rayonlarında «İmmunlaşdırma həftəsi»nin keçirilməsi ilə bağlı Əmr imzalayıb.**

Bu barədə Səhiyyə Nazirliyindən verilən məlumatda bildirilir ki, Əmr Ümumdünya Səhiyyə Təşkilatının təşəbbüsü ilə 2006-cı ildən etibarən Avropa regionunda keçirilən «İmmunlaşdırma həftəsi»nin ölkəmizdə də yüksək səviyyədə təşkili məqsədini daşıyır.

Sənədə əsasən, Azərbaycanın bütün şəhər və rayonlarında «İmmunlaşdırma həftəsi»nin keçirilməsi təşkilati-hüquqi formasından asılı olmayaraq, bütün tibb idarə və müəssisələrinin rəhbərlərinə tapşırılıb.

Bütün şəhər və rayonlarda hər hansı səbəbə görə vaksinasiyadan kənarda qalan uşaqların «İmmunlaşdırma həftəsi» ərzində peyvəndlərə cəlb edilməsi, peyvəndlərlə əhatə səviyyəsinin xüsusilə aşağı olduğu regionlarda monitorinqlərin keçirilməsi sənəddə əksini tapıb. Eyni zamanda, uşaqların vaksinasiyasını həyata keçirən tibb müəssisələrinə immunlaşdırma tədbirlərinin təşkilində metodiki kömək göstərilməsi, əhalinin bu barədə maarifləndirilməsi kimi məsələlərin təşkili də nəzərdə tutulub.

Qeyd edək ki, Ümumdünya İmmunlaşdırma Həftəsi Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) təşəbbüsü ilə hər il aprelin ikinci yarısında keçirilir. Əvvəlcə bu tədbir Avropa İmmunlaşdırma Həftəsi adlanırdı və müvafiq olaraq yalnız bir qitənin ölkələrini əhatə edirdi. Lakin tədricən digər qitələr də həmin prosesə qoşuldular.

İmmunlaşdırma həftəsi ictimaiyyətin diqqətini bəşəriyyəti yoluxucu xəstəliklərdən qorumaq üçün əsas profilaktik tədbirlərdən biri kimi immunizasiyaya cəlb etmək məqsədi daşıyır. ÜST ailələri uşaqlarının ölümcül xəstəliklərə qarşı peyvənd olunduğundan əmin olmağa çağırır.

Təşkilatın məlumatına görə, immunizasiya hər il difteriya, tetanus, göyöskürək, qızılca, parotit və məxmərəkdən 2-3 milyon nəfərin ölümünə mane olur. Vaksini vaxtında alan uşaqların sayı da ÜST-nin səyləri və onun elan etdiyi İmmunlaşdırma Həftəsi sayəsində artır. Hər il dünyada 100 milyondan çox uşaq difteriya, tetanus və göyöskürəyə qarşı peyvənd olunur.

Bununla belə, 20 milyona yaxın uşaq hələ də lazımi peyvəndi almır. Onların demək olar ki, 70 faizi on ölkədə – Hindistan, İndoneziya, Əfqanıstan, Pakistan, İraq, Konqo, Nigeriya, Uqanda, Efiopiya və Cənubi Afrikada yaşayır. Halbuki immunlaşdırma nəticəsində beş yaşına qədər olan 1,7 milyon uşağın həyatını xilas etmək olardı. 2022-ci ildə təxminən 14,3 milyon südəmər körpə həyat üçün lazım olan peyvənd almayıb. Bunun səbəbləri qeyri-adekvat vaksin təchizatı, səhiyyə xidmətlərinə çıxışın olmaması, siyasi və maliyyə dəstəyinin çatışmamasıdır.

Gələcəkdə belə halların baş verməməsi üçün ÜST İmmunlaşdırma Həftəsi çərçivəsində müxtəlif maarifləndirici tədbirlər keçirir. Həmçinin uşaqların və böyüklərin peyvəndlənməsini təşkil edir, müxtəlif ölkələrin nümayəndələrini məlumat və təcrübə mübadiləsinə dəvət edir. Beynəlxalq əməkdaşlıq əhalinin immunizasiya tempini sürətləndirməyə, insanların və regionların maksimum sayını əhatə etməyə imkan verir. Peyvəndləmə dünyanı ağuşuna alan COVID-19-la da mübarizədə öz faydasını verdi. Buna görə də ÜST beynəlxalq, regional, milli və yerli səviyyələrdə, dövlət və özəl sektorda və vətəndaş cəmiyyəti daxilində fəaliyyət göstərən insanları və təşkilatları Ümumdünya İmmunlaşdırma Həftəsi çərçivəsində tədbirlərin təşkilində və iştirakında daha fəal olmağa çağırır.

İmmunlaşdırma həftəsi çərçivəsində ÜST-nin dəstəyi ilə bir sıra rayonlarda maarifləndirici tədbirlər keçirilib. Həmçinin ölkəmizin tibb idarə və müəssisələrində əhaliyə paylanması üçün müxtəlif mövzularda poster və yaddaş vərəqələri hazırlanıb.

*(Əvvəli 6-cı səhifədə)*

Müvəkkil psixi sağlamlıq məsələlərinə cavabdeh qurumlar arasında bu sahədə koordinasiyalı əməkdaşlığın daha da gücləndirilməsinin əhəmiyyətini vurğulayıb.

Tədbirdə çıxış edən **səhiyyə naziri Teymur Musayev** ölkəmizdə psixiatrik xidmətin yaxşılaşdırılması məqsədilə görülən tədbirlərdən, tibbi xidmətin əlçatanlığının və keyfiyyətinin artırılması istiqamətində atılan məqsədyönlü addımlardan danışıb. Səhiyyə naziri bildirib ki, «psixiatriya» ixtisası üzrə rezidentura təhsilinin müddəti 2 ildən 3 ilə artırılıb, «Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisasların Təsnifatı»na yeni «Uşaq və yeniyetmə psixiatriyası» ixtisası əlavə edilib. Nazirlikdə Müharibə əlilləri, yaralıları və şəhid ailələri ilə iş sektoru və «9109 Çağrı Mərkəzi» yaradılıb.

Teymur Musayev tibbi xidmətin əlçatanlığını və keyfiyyətinin artırılmasını təmin etmək üçün məqsədyönlü addımların atıldığını diqqətə çatdırıb: «Bu sahədə illərlə formalaşmış stiqmanın aradan götürülməsi məqsədilə artıq bir müddətdir ki, ambulator və stasionar psixiatriya xidməti dövlət tibb müəssisələri ilə yanaşı, özəl tibb müəssisələrində də göstərilir. Həmin müəssisələr həm Bakı şəhərində, həm də regionlarda yerləşir».

Azərbaycan səhiyyə naziri Ombudsman Aparatının əməkdaşları tərəfindən psixiatriya müəssisələrinə mütəmadi ziyarətlər keçirildiyini, pasiyentlərin hüquqlarının təminatı vəziyyəti, saxlanma şəraiti və digər məsələlərin yerində araşdırıldığını vurğulayıb: «Səhiyyə Nazirliyi Ombudsman Aparatı ilə mövcud əməkdaşlığı yüksək qiymətləndirir. İcrası qısa zamanda mümkün olan tövsiyələr dərhal yerinə yetirilir».

«Psixi sağlamlıq üzrə Milli Strategiyanın hazırlanması, psixiatriya xəstəxanalarında müalicə olunan pasiyentlər üçün Müalicə İstehsalat Əmək Emalatxanalarının yaradılması, psixo-sosial reabilitasiya mərkəzlərinin açılması, psixi sağlamlıq sahəsində elmi tədqiqatların aparılması gələcəyə yönəlik planlarımızdır», – deyə Teymur Musayev fikrini tamamlayıb.

## «Azərbaycanda psixi sağlamlıq və psixi xəstəliklərdən əziyyət çəkən şəxslərin hüquqları»



**Milli Məclisin Səhiyyə Komitəsinin sədri Əhliman Əmiraslanov** son vaxtlar psixoloji yardım göstərən özəl müəssisələrdə çalışan şəxslərin əksəriyyətinin bu sahə üzrə təhsilinin olmadığını bildirib, bu sahəyə ciddi nəzarətin artırılmasının əhəmiyyətini vurğulayıb. Ə.Əmiraslanov qeyd edib ki, həmin şəxslərin pasiyentlərə göstərdiyi «yardımlar» adekvat deyil. Onlar psixi sağlamlıqla məşğul olmur, hətta psixiatriya xəstələrini də prosesə cəlb edirlər. Komitə sədri ölkəmizdə həkimlərin və pasiyentlərin hüquqlarını qoruyacaq yeni qanun layihəsinin hazırlandığını da diqqətə çatdırıb.

**Milli Məclisin Ailə, Qadın və Uşaq Məsələləri Komitəsinin sədri Hicran Hüseynova** müasir dövrdə uşaqların virtual məkanda daha çox vaxt keçirmələrinin onların psixologiyasına ciddi təsir göstərdiyini qeyd edib. Komitə sədri əhali arasında sağlam həyat tərzinin təbliğinin, eyni zamanda, valideyn məsuliyyətinin artırılması ilə bağlı işin aparılmasının vacibliyini diqqətə çatdırıb.

**Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi Hande Harmancı** psixi xidmətlərə əlçatanlığın təmin edilməsinin ölkəmiz üçün ən əhəmiyyətli məsələlərdən biri olduğunu, psixi sağlamlıq mövzusunda maarifləndirmə tədbirlərinin həyata keçirilməsinin zəruriliyini vurğulayıb. COVID-19 pandemiyasının bütün dünyada psixi sağlamlıq məsələsinə ciddi təsir göstərdiyini söyləyən H.Harmancı Azərbaycanın öz torpaqlarını işğaldan azad etmək üçün apardığı müharibənin də insanların psixologiyasına təsir göstərdiyini deyib.

ÜST nümayəndəsi qeyd edib ki, təmsil etdiyi qurum tərəfindən 2020-ci ilin dekabrında Qarabağ ətrafındakı bölgələrdə psixi sağlamlıqla bağlı tədbirlər həyata keçirilib: «Biz bu müddətdə 54 nəfər psixiatriya mütəxəssisi yetişdirdik, onları iki il müddətinə təlimlərə cəlb etdik. Azərbaycan üçün psixi xidmətlərin əlçatanlığının təmini vacib məsələlərdən biridir. Eyni zamanda, rayonlarda psixiatr və klinik psixoloq kadrlarının çatışmazlığının şahidi oluruq. Xalq arasında psixiatrlarla bağlı stiqmanın azaldılması da vacib məsələlərdən biridir. Stiqma azalmazsa, insanların bu xidmətlərdən istifadəsi də səmərə verməyə bilər».

**Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli** dövlət tibb müəssisələrində çalışan psixiatrların sayı ilə bağlı mövcud problemlərdən, kadr çatışmazlığından danışıb. O, həmçinin son dövrlər gənclər arasında aqressiya, depressiya, panik atak hallarının artdığını və bu halların aradan qaldırılması istiqamətində zəruri addımların atılmasının vacibliyini vurğulayıb.

Rektor bildirib ki, bir çox xəstəxanalarda xəstələr aylarla, illərlə qalır: «Qanunvericiliyə əsasən, üç həkimdən ibarət komissiya xəstənin qohumunun icazəsi olmadan da onu evə buraxa bilər. Amma həkimlər bunu edə bilmirlər. Çünki qohumlar həkimlərə hədə-qorxu gəlirlər. Həkimə deyirlər ki, həmin xəstə bir hadisə törətsə, buna kim cavab verəcək? Hətta onların pensiya kartlarını da özlərində saxlayırlar. Bu gün dövlət tibb müəssisələrində 201 nəfər psixiatr çalışır. Əvvəllər bu rəqəm 533 nəfər idi», – deyə rektor bildirib.

**Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsinin rəisi vəzifəsini icra edən Rafael Mehtiyev** isə çıxışında hazırda ümumilikdə cəzaçəkmə müəssisələrində 30 həkim psixoloq-narkoloqun işlədiyini diqqətə çatdırıb. O, bu rəqəmin xeyli az olduğunu, eyni zamanda, cəzaçəkmə müəssisələrindən mövcud kadrların işdən getdiyini qeyd edib. Rafael Mehtiyev son illərdə 88 tibb işçisinin işdən çıxdığını vurğulayaraq, bunların gələcəkdə penitensiar müəssisələrdə işləmək üçün xüsusi hazırlanan şəxslər olduğunu nəzərə çatdırıb.

**Təhsil nazirinin müşaviri Rüstəm Ağayev** isə bildirib ki, məktəblərdə psixoloqlarla bağlı problemlər var. Həmin psixoloqların diaqnostik qiymətləndirmədən keçirilməsi planlaşdırılır.

Digər çıxış edənlər tibbi xidmətə əlçatanlığın yüksəldilməsi, həmçinin ölkədə psixi sağlamlığın təmini sahəsindəki mövcud problemlərin həlli istiqamətində təklif və tövsiyələrini veriblər.

Dəyirmi masa mövzu üzrə müzakirələrlə davam edib, iştirakçıların sualları cavablandırılıb.

Tədbirdə həmçinin Ombudsman Aparatının əməkdaşları, vətəndaş cəmiyyəti təsisatlarının nümayəndələri, psixiatr və ekspertlər iştirak ediblər.

# Bakıda Birinci Türk Dövlətləri Kardioloji Qurultayı keçirilib

**Səhiyyə Nazirliyi və nazirliyin Akademik C.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutunun (ETKİ) birgə təşkilatçılığı ilə Bakıda Birinci Türk Dövlətləri Kardioloji Qurultayı keçirilib.**

Nazirliyin mətbuat xidmətinin verdiyi xəbərə görə, Azərbaycanla yanaşı, Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğız Respublikası, Türkmənistan, Bosniya və Herseqovina, Şimali Kipr Türk Respublikasından kardiologiya sahəsində ixtisaslaşmış elm və tibb müəssisələrinin, eləcə də peşəkar cəmiyyətlərin rəhbərlərinin və nümayəndələrinin qatıldığı beynəlxalq tədbirdə ölkəmizin dövlət qurumlarının rəhbər şəxsləri, Milli Məclisin deputatları, Azərbaycan Tibb Universitetinin müəllim və tələbələri, ali təhsil və tibb müəssisələrinin nümayəndələri, tanınmış elm xadimləri və «ETKİ könüllüləri» iştirak ediblər.




Birinci Türk Dövlətləri Kardioloji Qurultayının rəsmi açılış mərasimində Dövlət Himni səsləndirildikdən sonra Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canını qurban verən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Açılışda **Azərbaycanın səhiyyə naziri Teymur Musayev** çıxış edərək Qurultayın vacibliyini vurğulayıb: «Qardaş ölkələrin iştirakı ilə ilk dəfə təşkil olunan Birinci Türk Dövlətləri Kardioloji Qurultayı ölkələrimizin tibb icmaları arasındakı münasibətlərin yeni mərhələyə keçməsinin və təşkilatın dayanıqlı platforma kimi artan nüfuzunun göstəricisidir».

Səhiyyə naziri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının İstanbul şəhərində keçirilən VIII Zirvə Görüşündə çıxışını, o çıxışda birgə gələcəyimiz üçün möhkəm təməllər olduğunu vurğulamasını xatırladıb. Bildirib ki, təşkilat çərçivəsində səhiyyə sektorundakı perspektiv imkanlardan danışarkən üzv və müşahidəçi ölkələrin coğrafi mövqeyi, demoqrafik göstəriciləri, əmək ehtiyatları, ixtisaslı işçi qüvvəsi nəzərə alınmalı mühüm amillərdir.

Teymur Musayev deyib ki, bu toplantı təmsil olunan ölkələrin tibb mütəxəssisləri, eyni zamanda, digər ölkələrdə fəaliyyət göstərən türk əsilli peşəkarlarla əlaqələr qurmaq, onların təcrübələri ilə tanış olmaq və gələcək əməkdaşlıq imkanlarını müəyyənləşdirmək üçün möhkəm əsaslar yaradır, kardiologiya sahəsində tibbin ən son yeniliklərinə dair məlumatlarla tanış olmağa, ölkə vətəndaşlarının sağlamlığının möhkəmləndirilməsinə yönəlmiş faydalı biliklər əldə etməyə vəsilə olur».



Prezident İlham Əliyevin siyasi iradəsi sayəsində Azərbaycanın suverenliyinin tam bərpa olunduğunu vurğulayan Teymur Musayev azad olunan torpaqlarımızda qardaş Türk dövlətlərinin bərpa-quruculuq işlərində aktiv şəkildə iştirak etdiklərini qeyd edib.

Sonda Azərbaycanın səhiyyə naziri Qurultayın təşkilinin ənənə halını alması və hər il bir ölkənin tədbirə ev sahibliyi etməsi təklifini irəli sürüb.

**Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı** vurğulayıb ki, tarix boyu türk xalqlarının ürəyi hər zaman bir-biri üçün döyünüb. Onun sözlərinə görə, beynəlxalq tədbir Türk dünyasından olan kardiologiya mütəxəssislərini bir araya gətirərək, birgə tədqiqat imkanlarının nəzərdən keçirilməsinə, ürək-damar xəstəliklərinin müalicəsində əhaliyə göstərilən səhiyyə xidmətlərinin keyfiyyətinin artırılmasına töhfələr verəcək.

**ETKİ-nin direktoru, professor Gülnaz Dadaşova** qeyd edib ki, Qurultayın proqramına yeni tibbi texnologiyaların və fundamental tibbi nailiyyətlərin tətbiqinin praktiki aspektlərinə həsr olunan plenar və bölmə iclasları, orijinal tədqiqatların nəticələri, real klinik təcrübədən olan hallar əsasında klinik müzakirələr, debatlar və yeni klinik tövsiyələr daxildir.

Açılış mərasimində həmçinin Türkiyənin ürək transplantasiyası edən ilk qadın cərrahı professor Serap Aykut, Qazaxıstan Respublikasının baş kardioloqu professor Maxabat Bekbosınova, Özbəkistan Səhiyyə Nazirliyinin baş kardioloqu Xurşid Fozilov və digərləri çıxış ediblər.

Qeyd edək ki, I Türk Dövlətləri Kardioloji Qurultayı çərçivəsində kardiologiya üzrə kurslar da təşkil edilib. «Ürək-damar xəstəliklərində kardiak görüntüləmə» kursu zamanı ürək-damar xəstəliklərinin diaqnostikasında MRT görüntüləmə, kardiak KT angioqrafiya kimi müasir üsulların səmərəliliyi və əhəmiyyəti interaktiv şəkildə müzakirə edilib.

Xarici həkimlərin iştirakı ilə baş tutan «Ürək qapaq xəstəliklərində yeniliklər: transkateter aorta qapağı implantasiyası (TAVI)» adlı kursda qapaq xəstəliklərinin açıq cərrahi müdaxilə olmadan invaziv üsulla bərpası, TAVI simulyasiyası nümayiş etdirilib.

"Endovaskulyar anevrizmin (EVAR) və torakal endovaskulyar anevrizmin (TEVAR) bərpası və müalicəsi" kursunda bu əməliyyatlar barədə ətraflı məlumat verilib və həmin əməliyyatların simulyasiyası aparılıb. Həmçinin ilk dəfə keçirilən «Renal denervasiya» adlı kursda rezistent hipertenziya (dərman müalicəsinə cavab verməyən davamlı yüksək təzyiqin müalicəsi üçün minimal invaziv prosedur) haqqında məlumat verilib.

Üç gün davam edən Qurultaya ümumilikdə 1000-dən çox yerli və xarici mütəxəssislər qatılıb.

Qeyd edək ki, Birinci Türk Dövlətləri Kardioloji Qurultayı Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurası tərəfindən akkreditasiya olunub və 51 DTT kredit balı ilə qiymətləndirilib.

# «Azərbaycanda qida nəzarəti sisteminin qiymətləndirilməsi aləti» üzrə tədbir keçirilib

**Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) dəstəyi ilə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) Bakıda «Azərbaycanda qida nəzarəti sisteminin qiymətləndirilməsi aləti» konsepsiyası üzrə ikigünlük tədbir keçirib.**

Layihənin yekun tədbirində qida nəzarəti sistemi üzrə prioritet sahələr, strateji tədbirlər və gələcək fəaliyyətlər müzakirə olunub.

Azərbaycan Respublikası Nazirlər Kabineti, Milli Məclisi, AQTA, Səhiyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Gömrük Komitəsi, AQTA-nın tabeliyində Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin, eləcə də beynəlxalq təşkilatların – FAO, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (UNICEF) və digər qurumların nümayəndələrinin iştirak etdiyi yüksək səviyyəli görüşdə çıxış edən **AQTA sədri Qoşqar Təhməzli** bildirib ki, ölkədə qida təhlükəsizliyi sisteminin institusional olaraq formalaşdırılması istiqamətində ardıcıl həyata keçirilən məqsədyönlü tədbirlər əhalinin daha təhlükəsiz qida məhsulları ilə təmin edilməsinə, kənd təsərrüfatı və qida məhsullarının ixrac potensialının artırılmasına mühüm töhfələr verib. Görülən işlər qida sənayesi sektorunda müasir standartların tətbiqinə, istehlakçıların hüquqlarının müdafiəsinə və idxal-ixrac prosesi zamanı qida məhsullarının təhlükəsizliyinin təmin olunmasına müsbət təsir göstərib. Eyni zamanda, ötən dövrdə qida zənciri üzrə həyata keçirilən nəzarət və tənzimləmə tədbirlərinin nəticələri təhlil edilib, qida məhsullarının təhlükəsizliyinin təmin olunması sahəsində qabaqcıl beynəlxalq təcrübədə mövcud olan yanaşmalar öyrənilib və tətbiqinə başlanılıb.

«Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı»nın qəbul olunmasını xatırladan Q.Təhməzli onun icrası ilə əlaqədar ölkədə insan, heyvan və bitki sağlamlığı üçün təhlükə törədən müvafiq risklərin idarə edilməsi, biotəhlükəsizliyin qorunması və təmin olunması istiqamətində Agentlik tərəfindən həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlərdən danışıb. O cümlədən qeyd olunub ki, transyağ turşuları ilə mübarizə sahəsində görülən işlərlə əlaqədar Azərbaycan bu ildən etibarən ÜST tərəfindən hazırlanan «Ölkələrin Qiymətləndirmə Aləti»ndə 2-ci səviyyədən 3-cü səviyyəyə yüksəlib.

*(Davamı 9-cu səhifədə)*

# «Azərbaycanda qida nəzarəti sisteminin qiymətləndirilməsi aləti» üzrə tədbir keçirilib

*(Əvvəli 8-ci səhifədə)*

AQTA rəhbəri bildirib ki, ötən 5 il ərzində müasir qida təhlükəsizliyi sisteminin qurulması ilə bağlı görülən işlərin və sistemin qiymətləndirilməsi növbəti atılacaq addımlara, Agentliyin fəaliyyətinin daha səmərəli təşkilinə kömək göstərəcək.

**Kənd təsərrüfatı naziri Məcnun Məmmədov** vurğulayıb ki, nazirlik «dəyər zənciri» prinsipini tətbiq etməklə insan qidası üçün tam təhlükəsiz ərzaq məhsullarının «tarladan süfrəyə» çatdırılması işində bilavasitə iştirak edir, bitki və heyvan sağlamlığını daim diqqət mərkəzində saxlayır. Qida zəncirinin ilk halqalarında məhsuldar heyvanların sağlamlığına töhfə verən yüksəkkeyfiyyətli heyvan mənşəli qida məhsullarını əldə etmək üçün bütün preventiv tədbirlər görülür.

**Səhiyyə naziri Teymur Musayev** diqqətə çatdırıb ki, qidaların keyfiyyətli və təhlükəsiz olması qida ilə əlaqəli xəstəlik hallarının yayılmasının qarşısını alır və səhiyyə sistemini mümkün təhdidlərdən qoruyur. Qida təhlükəsizliyi əhalinin sağlamlığının qorunmasında mühüm rol oynadığına görə tədricən qlobal səviyyədə ictimai səhiyyə mövzusuna çevrilir. Nazirin sözlərinə görə, son dövrlərdə dünyada iqtisadi və ekoloji dəyişikliklər qida patogenlərinin yenidən aktivləşməsinə səbəb olub: «Tibb müəssisələrində təhlükəsiz qida məhsullarından istifadə xüsusilə mühüm əhəmiyyət daşıyır. Pasiyentlərin əksəriyyəti mikrobioloji və qidalanma risklərinə sağlam insanlardan daha həssas olurlar. Bu baxımdan, qida ilə əlaqəli nəzarət tədbirlərinin düzgün şəkildə qurulması Səhiyyə Nazirliyinin diqqətlə yanaşdığı məsələdir».

Teymur Musayev vurğulayıb ki, qida təhlükəsizliyi sisteminin effektivliyi bütün maraqlı tərəflərin ehtiyaclarına yönəlik vahid missiyanın mövcudluğundan başlayır: «Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il 2 fevral tarixli müvafiq Sərəncamı ilə təsdiq edilən «Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər» arasında vətəndaşların sağlam həyat tərzinin təmin edilməsi əsas məqsədlərdən biri olaraq qarşıya qoyulub. «Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası»nda uşaqların sağlam həyat tərzi və sağlam qidalanmanın təşviqi qeyd olunan məqsədə çatmaq üçün əsas fəaliyyət istiqamətlərindən biri kimi müəyyən edilib. Bu baxımdan AQTA ilə Səhiyyə Nazirliyi arasında sıx əməkdaşlıq mövcuddur. Əhali arasında müxtəlif maarifləndirmə tədbirləri keçirilir, xüsusən də məktəblilər arasında düzgün qidalanmanın təşviqinə dair birgə tədbirlər icra olunur.

**Milli Məclisin Aqrar siyasət komissiyasının sədri Tahir Rzayev** bildirib ki, son illərdə ölkədə qida təhlükəsizliyi, qida məhsullarının keyfiyyətinin yaxşılaşdırılması və ixrac potensialının artırılması sahəsində nəzərəçarpan nailiyyətlər əldə olunub. Əhalinin təhlükəsiz və keyfiyyətli qida məhsulları ilə təminatı, qida məhsullarının təhlükəsizliyinə nəzarət sisteminin səmərəliliyinin artırılması istiqamətində addımlar atılıb.

**Nazirlər Kabinetinin Aqrar və ekologiya şöbəsinin müdiri Lətif Qasımov** vurğulayıb ki, son illərdə «qida» anlayışı köklü transformasiyaya uğrayaraq, yalnız qida qəbulu ilə bağlı deyil, həm də sağlamlığın, psixofiziki rifahın qorunmasında və bəzi xəstəliklərin qarşısının alınmasında mühüm rol oynayan faktora çevrilib. Həmçinin qida təhlükəsizliyi sahəsində dünya miqyasında yeni çağırışlar meydana gəlib. Dünyada qida təhlükəsizliyi əhəmiyyətli məsələyə çevrilib, bu sahədə müvafiq qurumlar yaradılıb. Ölkəmizdə də bu istiqamətdə mühüm addımlar atılıb və nailiyyətlər əldə olunub.

Tədbirin çox əhəmiyyətli olduğunu vurğulayan **FAO-nun Azərbaycandakı nümayəndəsi Nasar Hayat** qeyd edib ki, milli qida nəzarəti sistemi istehlakçıların sağlamlığının qorunmasında və qida məhsullarının ticarəti sahəsində ədalətli təcrübənin təmin edilməsində mühüm rol oynayır. Bu sistem hər bir ölkədə səhiyyənin səviyyəsi, hüquqi və institusional baza və analitik resurslar da daxil olmaqla, dəstək xidmətlərinin mövcudluğu kimi xüsusi şərtlərdən asılıdır. Sistemin öz funksiyalarını səmərəli şəkildə yerinə yetirə bilməsi həm də onun daha da gücləndirilməsinin planlaşdırılması, yeni bazarların və ticarət əlaqələrinin inkişafı, eləcə də daxili bazarda etimadın yaradılması üçün mühüm siqnaldır.

Sonra AQTA-nın və FAO-nun nümayəndələri təqdimatlarla çıxış ediblər. Bildirilib ki, «Qida nəzarəti sisteminin qiymətləndirilməsi aləti» adlı layihə Agentlik tərəfindən FAO-nun dəstəyi əsasında Səhiyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Gömrük Komitəsi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin iştirakı ilə reallaşdırılıb. Regionda ilk dəfə ölkəmizdə həyata keçirilən layihənin əsas məqsədi vahid və obyektiv formada ölkənin qida nəzarəti sisteminin effektivliyini qiymətləndirməkdir. Bu proses rəsmi olaraq 2022-ci ilin iyununda təlim seminarı ilə başlayıb. Sonra məlumatlar qurumlar tərəfindən toplanıb və onları təsdiqləmək üçün qiymətləndirmə qrupu 2023-cü ildə iki qiymətləndirmə missiyası həyata keçirib.

Sonda mövzu ətrafında müzakirələr aparılıb, qida nəzarəti sistemi üzrə prioritet sahələr və strateji tədbirlər müəyyənləşdirilib. Qida nəzarəti sisteminin qiymətləndirilməsinin ölkəmizdə bu sahənin təkmilləşdirilməsinə töhfə verəcəyi vurğulanıb.

Qeyd edək ki, «Qida nəzarəti sisteminin qiymətləndirilməsi aləti» adlı layihə çərçivəsində ölkəmizdə aparılan qiymətləndirmə nəticəsində Azərbaycanda mövcud qida təhlükəsizliyi sistemi üzrə FAO-nun və ÜST-nin müəyyənləşdirdiyi ideal sistemlərin 25 səriştəsinin (kompetensiya) nəzərə alındığı və işlək olduğu aşkarlanıb. Bu isə mövcud qida təhlükəsizliyi sisteminin beynəlxalq təşkilatlar tərəfindən müəyyən edilmiş standart və tələblərə uyğunluğunu göstərir.



# Bakıda dünya qastroenteroloqlarının XX beynəlxalq konqresi keçirilib

**Azərbaycan səkkizinci dəfədir Beynəlxalq Avrasiya Cərrahlar və Qastroenteroloqlar Konqresinə, eyni zamanda, XX Beynəlxalq Hepatoqastroenterologiya Konqresinə ev sahibliyi edib.**

Səhiyyə Nazirliyinin dəstəyi ilə keçirilən beynəlxalq tədbirdə dünyanın 30-dan çox ölkəsini təmsil edən 200-dən çox alim, tanınmış həkim və cərrahlar, akademik qurumların təmsilçiləri, eləcə də ölkəmizin dövlət qurumlarının rəhbər şəxsləri, millət vəkilləri, ixtisaslaşmış ali təhsil, elm və tibb müəssisələrinin, peşəkar cəmiyyətlərin rəhbərləri və nümayəndələri iştirak ediblər.

Nazirliyin Mətbuat xidmətindən verilən məlumata görə, Akademik Mustafa Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi, Milli Onkologiya Mərkəzi və Azərbaycan Tibb Universitetinin, həmçinin Azərbaycan Cərrah və Qastroenteroloqlar İctimai Birliyinin, Avrasiya Qastroenteroloqlar Assosiasiyasının, Türkiyə Respublikasının Hepato Bilio Pankreatologiya (HeBiPA) və Türkiyə Qaraciyər Araşdırmaları (TASL) assosiasiyalarının birgə təşkilatçılığı ilə baş tutan konqresin iştirakçıları əvvəlcə Fəxri xiyabanda müasir Azərbaycanın qurucusu, səhiyyəmizin və tibb elmimizin inkişafında müstəsna xidmətləri olan Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib, xatirəsinə hörmət və ehtiramlarını bildiriblər. Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

Üçgünlük beynəlxalq konqresin açılış mərasimi Azərbaycan və Türkiyə respublikalarının Dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb.

Konfransın açılış mərasimində giriş sözü ilə çıxış edən Azərbaycan səhiyyə nazirinin müavini **Nadir Zeynalov** tədbir iştirakçılarını səhiyyə naziri Teymur Musayevin adından salamlayıb, Azərbaycanda 8-ci dəfə təşkil olunan üçgünlük beynəlxalq konqresdə dünyanın bir çox ölkələrinin aparıcı mütəxəssisləri tərəfindən qastroentrologiya və cərrahiyyənin müxtəlif sahələrini əks etdirən, müasir problemləri əhatə edən mühazirələrin geniş auditoriyaya çatdırılmasının əhəmiyyətini qeyd edib: «Əminəm ki, beynəlxalq konqres qastroenterologiya və hepatoqastroenterologiya sahəsində eksperimental və klinik araşdırmalarda ən son nailiyyətlərlə tanış olmaq imkanı yaradacaq, eyni zamanda, beynəlxalq elmi əməkdaşlığın möhkəmlənməsinə öz töhfəsini verəcək», — deyə nazir müavini fikrini tamamlayıb.

Öz çıxışlarında Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini **Rəşad Mahmudov**, Milli Məclisin Səhiyyə komitəsinin üzvü, Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr departamentinin rəhbəri **Soltan Məmmədov,** Beynəlxalq konqresin sədri **professor Rauf Ağayev,** Azərbaycan Tibb Universitetinin rektoru **professor Gəray Gəraybəyli** Beynəlxalq Avrasiya Cərrahlar və Qastroenteroloqlar Konqresinin yaranma tarixindən bəhs edərək, bu tədbirin 1997-ci ildə Bakıda ilk dəfə məhz Ümummilli Lider Heydər Əliyevin dəstəyi ilə keçirilməsini vurğulayıblar.

Çıxışçılar XX Beynəlxalq Avrasiya Cərrahlar və Qastroenteroloqlar Konqresinin və XX Beynəlxalq Hepatoqastroenterologiya Konqresinin bu il öz ərazi bütövlüyünü tamamilə bərpa etmiş ölkəmizdə keçirilməsindən duyduqları qürur və sevinci iştirakçılarla paylaşaraq, növbəti tədbirin Qarabağın ürəyi Xankəndidə və mədəniyyət beşiyimiz Şuşa şəhərində keçirilməsini arzu etdiklərini dilə gətiriblər.

Açılış mərasimində çıxış edən HeBiPA-nın sədri **Hale Gökcan**, Birləşmiş Avropa Qastroenteroloqlar Assosiasiyasının sədri **Matias Löhr**, Avropa Qaraciyər Araşdırma Assosiasiyasının baş katibi **Aleksandr Kraq**, Ankara Universiteti Tibb fakültəsinin dekanı **Zehra Aycan**, Hacettepe Universiteti Tibb fakültəsinin dekanı **Deniz Demiryürek** və digər xarici qonaqlar geniş coğrafi areala malik beynəlxalq konqresin növbəti dəfə ölkəmizdə keçirilməsindən məmnunluqlarını ifadə edib, alimlərimizin və həkimlərimizin dünya tibb elminə verdikləri töhfələrdən danışıblar.

*(Davamı 11-ci səhifədə)*

# 2024-cü il üçün doktorantura və dissertantura üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan ali təhsil və elmi müəssisələrə qəbul haqqında ELAN

## Azərbaycan Tibb Universiteti

*Fəlsəfə doktoru proqramı üzrə doktorantura:*
- «Biokimya» (2406.02) ixtisası üzrə (əyani)-1.0
- «Biokimya» (2406.02) ixtisası üzrə (qiyabi)-2.0
- «Mikrobiologiya» (2414.01) ixtisası üzrə (qiyabi) - 1.0
- «Epidemiologiya» (3202.01) ixtisası üzrə (qiyabi) - 2.0
- «Daxili xəstəliklər» (3205.01) ixtisası üzrə (qiyabi) - 2.0
- «Psixiatriya» (3211.01) ixtisası üzrə (qiyabi)-1.0
- «Səhiyyə və onun təşkili» (3212.01) ixtisası üzrə (qiyabi) - 1.0
- «Cərrahlıq» (3213.01) ixtisası üzrə (qiyabi)-1.0
- «Mamalıq və ginekologiya» (3215.01) ixtisası üzrə (qiyabi) - 3.0
- «Endokrinologiya» (3216.01) ixtisası üzrə (qiyabi) - 1.0
- «Otorinolarinqologiya» (3217.01) ixtisası üzrə (qiyabi) - 2.0
- «Kardiologiya» (3218.01) ixtisası üzrə (qiyabi)-2.0
- «Göz xəstəlikləri» (3219.01) ixtisası üzrə (qiyabi) - 1.0
- «Pediatriya» (3220.01) ixtisası üzrə (əyani)-1.0
- «Pediatriya» (3220.01) ixtisası üzrə (qiyabi)-1.0
- «Dəri və zöhrəvi xəstəliklər» (3222.01) ixtisası üzrə (qiyabi) - 1.0
- «Sinir xəstəlikləri» (3223.01) ixtisası üzrə (qiyabi) - 1.0
- «Onkologiya» (3224.01) ixtisası üzrə (qiyabi)-1.0
- «Şüa diaqnostikası və terapiyası» (3225.01) ixtisası üzrə (qiyabi) - 3.0
- «Stomatologiya» (3226.01) ixtisası üzrə (qiyabi) - 3.0
- «Travmatologiya və ortopediya» (3227.01) ixtisası üzrə (qiyabi) - 2.0
- «Neyrocərrahlıq» (3229.01) ixtisası üzrə (qiyabi) - 1.0
- «Uşaq cərrahlığı» (3230.01) ixtisası üzrə qiyabi) - 1.0
- «Anesteziologiya və reanimatologiya» (3231.01) ixtisası üzrə (qiyabi) - 2.0
- «Hematologiya və qanköçürmə» (3232.01) ixtisası üzrə (qiyabi) - 1.0
- «Revmatologiya» (3233.01) ixtisası üzrə (qiyabi) - 2.0
- «Urologiya» (3234.01) ixtisası üzrə (qiyabi)-1.0
- «Dərmanların alınma texnologiyası, əczaçılıq işinin təşkili» (3400.01) ixtisası üzrə (əyani)-2.0
- «Əczaçılıq kimyası, farmakoqnoziya» (3400.02) ixtisası üzrə (əyani) - 1.0
- «Əczaçılıq kimyası, farmakoqnoziya» (3400.02) ixtisası üzrə (qiyabi) - 2.0

*Fəlsəfə doktoru proqramı üzrə dissertantura:*
- «Biokimya» (2406.02) ixtisası üzrə - 2.0
- «İnsan və heyvan fiziologiyası» (2411.01) ixtisası üzrə - 1.0
- «Mikrobiologiya» (2414.01) ixtisası üzrə-1.0
- «Daxili xəstəliklər» (3205.01) ixtisası üzrə-2.0
- «Pediatriya» (3220.01) ixtisası üzrə - 2.0
- «Dəri və zöhrəvi xəstəliklər» (3222.01) ixtisası üzrə - 1.0
- «Şüa diaqnostikası və terapiyası» (3225.01) ixtisası üzrə - 1.0
- «Ürək-damar cərrahlığı» (3236.01) ixtisası üzrə - 1.0
- «İnsan anatomiyası» (3241.01) ixtisası üzrə-1.0
- «Allerqologiya və immunologiya» (3244.01) ixtisası üzrə - 1.0
- «Dərmanların alınma texnologiyası, əczaçılıq işinin təşkili» (3400.01) ixtisası üzrə - 2.0

*Ünvan: Bakı şəh., Ə.Qasımzadə küç. 14.*
*Tel.: 597-43-23*

## Akademik C.M.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutu

*Fəlsəfə doktoru proqramı üzrə doktorantura:*
- «Kardiologiya» (3218.01) ixtisası üzrə (qiyabi) - 2.0

*Fəlsəfə doktoru proqramı üzrə dissertantura:*
- «Kardiologiya» (3218.01) ixtisası üzrə - 2.0

*Ünvan: Bakı şəh., F.X.Xoyski küç. 101 «A».*
*Tel.: 564-25-10*

## Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutu

*Fəlsəfə doktoru proqramı üzrə dissertantura:*
- «Travmatologiya və ortopediya» ixtisası (3227.01) üzrə - 2.0

*Ünvan: Bakı şəh., Abbas Səhhət küç. 32.*
*Tel.: 440-00-05*

## V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu

*Fəlsəfə doktoru proqramı üzrə doktorantura:*
- «Mikrobioloya» (2414.01) ixtisası üzrə (əyani) - 1.0
- «Mikrobioloya» (2414.01) ixtisası üzrə (əyani, ödənişli əsaslarla) - 1.0

Fəlsəfə doktoru proqramı üzrə dissertantura:
- «Mikrobiologiya» (2414.01) ixtisası üzrə-1.0
- «Mikrobiologiya» (2414.01) ixtisası üzrə (ödənişli əsaslarla) - 1.0

*Ünvan: Bakı şəh., Badamdar qəs., M.Topçubaşov küç. 216.*
*Tel.: 594-78-34*

## Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi

*Fəlsəfə doktoru proqramı üzrə doktorantura:*
- «Cərrahlıq» (3213.01) ixtisası üzrə (qiyabi) - 2.0

*Fəlsəfə doktoru proqramı üzrə dissertantura:*
- «Anesteziologiya və reanimatologiya» (3231.01) ixtisası üzrə - 1.0
- «Ürək-damar cərrahlığı» (3236.01) ixtisası üzrə - 1.0

*Ünvan: Bakı şəh., Şərifzadə küç. 196.*
*Tel.: (+994 12) 497-71-58; (+994 50) 310-32-01*

## Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu

*Fəlsəfə doktoru proqramı üzrə doktorantura:*
- «Mamalıq və ginekologiya» (3215.01) ixtisası üzrə (əyani) - 1.0
- «Mamalıq və ginekologiya» (3215.01) ixtisası üzrə (qiyabi) - 1.0

*Fəlsəfə doktoru proqramı üzrə dissertantura:*
- «Mamalıq və ginekologiya» (3215.01) ixtisası üzrə - 2.0

*Ünvan: Bakı şəh., K.Kazımzadə küç., 118.*
*Tel.: 510-95-97*

## Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu

*Fəlsəfə doktoru proqramı üzrə doktorantura:*
- «Ftiziatriya» (3228.01) ixtisası üzrə (əyani) - 1.0
- «Ftiziatriya» (3228.01) ixtisası üzrə (qiyabi) - 2.0
- «Pulmonologiya» (3235.01) ixtisası üzrə (əyani) - 1.0
- «Pulmonologiya» (3235.01) ixtisası üzrə (qiyabi) - 2.0

*Ünvan: Bakı şəh., E.Süleymanov küç. 2514-cü məhəllə. Tel.: 421-50-91*

## Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu

*Fəlsəfə doktoru proqramı üzrə doktorantura:*
- «Psixiatriya» (3211.01) ixtisası üzrə (qiyabi) - 2.0
- «Səhiyyə və onun təşkili» (3212.01) ixtisası üzrə (qiyabi) - 2.0
- «Cərrahlıq» (3213.01) ixtisası üzrə (əyani) - 1.0
- «Cərrahlıq» (3213.01) ixtisası üzrə (qiyabi) - 1.0
- «Mamalıq və ginekologiya» (3215.01) ixtisası üzrə (qiyabi) - 2.0
- «Kardiologiya» (3218.01) ixtisası üzrə (qiyabi) - 3.0
- «Sinir xəstəlikləri» (3223.01) ixtisası üzrə (qiyabi) - 2.0
- «Onkologiya» (3224.01) ixtisası üzrə (qiyabi) - 1.0
- «Şüa diaqnostikası və terapiyası» (3225.01) ixtisası üzrə (qiyabi) - 1.0
- «Stomatologiya» (3226.01) ixtisası üzrə (qiyabi) - 1.0
- «Anesteziologiya və reanimatologiya» (3231.01) ixtisası üzrə (qiyabi) - 2.0
- «Urologiya» (3234.01) ixtisası üzrə (qiyabi) - 1.0
- «Gigiyena» (3240.01) ixtisası üzrə (qiyabi) - 1.0
- «Allerqologiya və immunologiya» (3244.01) ixtisası üzrə (qiyabi) - 1.0

*Ünvan: Bakı şəh., Tbilisi pr., 3165-ci məhəllə.*
*Tel.: 431-40-33*

## Milli Onkologiya Mərkəzi

*Fəlsəfə doktoru proqramı üzrə doktorantura:*
- «Onkologiya» (3224.01) ixtisası üzrə (qiyabi) - 2.0
- «Şüa diaqnostikası və terapiyası» (3225.01) ixtisası üzrə (qiyabi) - 2.0

*Fəlsəfə doktoru proqramı üzrə dissertantura:*
- «Onkologiya» (3224.01) ixtisası üzrə - 1.0

*Ünvan: Bakı şəh., Zərdabi küç. 79 «B».*
*Tel.: 530-41-66*

## Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi

*Fəlsəfə doktoru proqramı üzrə dissertantura:*
- «Göz xəstəlikləri» (3219.01) ixtisası üzrə - 2.0

*Ünvan: Bakı şəh., Cavadxan küç., məhəllə 3215.*
*Tel.: 569-09-07*

## K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutu

*Fəlsəfə doktoru proqramı üzrə doktorantura:*
- «Pediatriya» ixtisası (3220.01) üzrə (əyani) - 2.0
- «Pediatriya» ixtisası (3220.01) üzrə (qiyabi) - 2.0

*Fəlsəfə doktoru proqramı üzrə dissertantura:*
- «Pediatriya» ixtisası (3220.01) üzrə - 2.0

*Ünvan: Bakı şəh., Bəsti Bağırova küç. 15.*
*Tel.: 495-21-00*

## Milli Hematologiya və Transfuziologiya İnstitutu

*Fəlsəfə doktoru proqramı üzrə doktorantura:*
- «Hematologiya və qanköçürmə» (3232.01) ixtisası üzrə (qiyabi)-1.0

*Fəlsəfə doktoru proqramı üzrə dissertantura:*
- «Hematologiya və qanköçürmə» (3232.01) ixtisası üzrə - 1.0

*Ünvan: Bakı şəh., M.Qaşqay küç. 87.*
*Tel.: (012) 440-63-34*

## Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutu

*Fəlsəfə doktoru proqramı üzrə doktorantura:*
- «Sinir xəstəlikləri» (3223.01) ixtisası üzrə (əyani) - 1.0
- «Sinir xəstəlikləri» (3223.01) ixtisası üzrə (qiyabi) - 1.0
- «Bərpa təbabəti, idman təbabəti, müalicəvi bədən tərbiyəsi, kurortologiya və fizioterapiya» (3245.01) ixtisası üzrə (əyani)-1.0
- «Bərpa təbabəti, idman təbabəti, müalicəvi bədən tərbiyəsi, kurortologiya və fizioterapiya» (3245.01) ixtisası üzrə (qiyabi)-1.0

*Fəlsəfə doktoru proqramı üzrə dissertantura:*
- «Sinir xəstəlikləri» (3223.01) ixtisası üzrə - 1.0
- «Bərpa təbabəti, idman təbabəti, müalicəvi bədən tərbiyəsi, kurortologiya və fizioterapiya» (3245.01) ixtisası üzrə - 1.0

*Ünvan: Bakı şəh., Xətai pr. 9.*
*Tel.: (012) 496-23-07*

## Bakıda dünya qastroenteroloqlarının XX beynəlxalq konqresi keçirilib

*(Əvvəli 9-cu səhifədə)*

Sonra Azərbaycan haqqında videoçarx nümayiş olunub.

400-dən çox yerli və xarici mütəxəssisin qatıldığı Beynəlxalq Konqres öz işini plenar sessiyalarla davam etdirib.

Sessiyalarda «Dünyada və Türkiyədə mədə-bağırsaq xəstəliklərinin yayılması», «Özbəkistanda canlı qohum donordan qaraciyər transplantasiyasının inkişafı», «Qazaxıstanda qaraciyərin canlı donor transplantasiyası» və digər məruzələr dinlənilib. Məruzələr ətrafında geniş müzakirələr aparılıb, mövzuya dair suallar cavablandırılıb.

Qeyd edək ki, beynəlxalq konqres Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurası tərəfindən akkreditasiya olunub və 30 DTT kredit balı ilə qiymətləndirilib.

## Nekroloq



**Azərbaycan tibb ictimaiyyətinə ağır itki üz vermişdir. Azərbaycanın tanınmış həkimi, təbabət alimi və bacarıqlı səhiyyə təşkilatçısı, Əməkdar elm xadimi, professor Nəsib Cəfər oğlu Quliyev vəfat etmişdir.**

Nəsib Quliyev 1951-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Aşağı Şorca kəndində anadan olmuşdu. 1967-ci ildə orada Daşkənd kənd orta məktəbini qızıl medalla, 1973-cü ildə Azərbaycan Tibb İnstitutunun (ATU) Pediatriya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdi. Bir müddət həkim-ordinator işləmiş, elmi araşdırmalarla məşğul olmuş, kiçik elmi işçi kimi çalışmışdı. 1977-ci ildə aspiranturaya daxil olan N.Quliyev 1981-ci ildə Moskvada namizədlik, 1991-ci ildə doktorluq dissertasiyasını müdafiə etmişdi. 1992-ci ildə professor elmi adı almış, ATU-nun Uşaq xəstəlikləri kafedrasının müdiri seçilmişdi.

Bundan sonra Nəsib müəllim elmi və praktik həkim fəaliyyəti ilə yanaşı, öz bilik və bacarıqlarını səhiyyə təşkilatçılığı sahəsində tətbiq etmiş, 1994-cü ildən başlayaraq, uzun illər boyu K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutunda direktor kimi çalışmışdı. Onun rəhbərliyi dövründə bu elm və tibb müəssisəsi Azərbaycanın uşaq əhalisinin sağlamlığının qorunması, bu sahədə elmi araşdırmalar aparılması, bütün ölkə ərazisində uşaq tibb müəssisələrinə metodiki tövsiyələr verilməsi sahəsində əhəmiyyətli işlər görmüşdü.

Sonrakı illərdə professor N.Quliyev öz fəaliyyətini ATU-da gənc tibb kadrlarının hazırlanmasına yönəltmişdi.

Nəsib Quliyev uzun illər boyu Səhiyyə Nazirliyinin pediatriya üzrə baş mütəxəssisi olmuşdu. Elmi kadrların yetişdirilməsi sahəsində səmərəli çalışmış, rəhbərliyi altında çox sayda elmlər namizədləri və elmlər doktorları müdafiə etmiş Nəsib müəllim 2000-ci ildə «Əməkdar elm xadimi» fəxri adına layiq görülmüşdü.

Professor N.Quliyev beynəlxalq aləmdə də pediatriya üzrə nüfuzlu alim kimi tanınırdı. O, Türk Dünyası Pediatriya Birliyinin prezidenti, Mərkəzi Asiya Ölkələri Neonatoloqları Şurasının baş katibi seçilmişdi.

Professor Nəsib Quliyevin əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

## AŞAĞIDAKI TİBB MÜƏSSİSƏLƏRİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

### «Məhkəmə Psixiatrik Ekspertiza Mərkəzi» PHŞ

Tibb bacısı (qardaşı) - 2.0

*Ünvan: A.Hüseyn küç., 69/71*
*Telefon: 455-44-79*

### «Bakı Şəhər Dezinfeksiya Mərkəzi» PHŞ

Təlimatçı-dezinfektor- 5.0
Feldşer - 1.0
Tibbi-statistik - 1.0
Feldşer-laborant - 1.0
Sanitar-feldşer - 1.0

*Ünvan: F.İbrahimbəyov küç., 19/21*
*Telefon: 594-70-08*

### «Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu» PHŞ

Tibb bacısı (qardaşı) - 8.0
Əməliyyat otağının tibb bacısı (qardaşı) - 1.0
Anestezist - 1.0
Rentgen-texnik - 2.0
Feldşer-laborant - 2.0

*Ünvan: E.Süleyman küç., 2514*
*Telefon: 421-50-91*

### «Elmi-Tədqiqat Pediatriya İnstitutu» PHŞ

Böyük elmi işçi - 1.0 (Yenidoğulan və vaxtından əvvəl doğulmuş uşaqların patologiyası üzrə elmi şöbə)
Kiçik elmi işçi - 0,5 (Anesteziologiya və reanimatologiya üzrə elmi şöbə)

*Ünvan: B.Bağırova küç., 15*
*Telefon: 595-21-00*

### Ağdam Rayon GEM

Sanitar-feldşer - 1.0
Tibbi-statistik - 1.0

*Ünvan: Quzanlı qəsəbəsi*
*Telefon: (02632) 5-06-42*

### Milli Onkologiya Mərkəzi

*Uşaq onkologiya bölməsinə:*
Rəhbər - 1.0 («onkologiya» ixtisasında tibb elmləri doktoru)

*Kimyaterapiya bölməsinə:*
Aparıcı elmi işçi - 1.0 («onkologiya» ixtisasında tibb elmləri doktoru, dosent)

*Şüa terapiyası bölməsinə:*
Böyük elmi işçi - 1.0 («şüa diaqnostikası və terapiyası» ixtisasında tibb üzrə fəlsəfə doktoru)

*Abdominalonkologiya bölməsinə:*
Rəhbər - 1.0 («onkologiya» ixtisasında tibb elmləri doktoru, dosent)
Böyük elmi işçi - 1.0 («onkologiya» ixtisasında tibb üzrə fəlsəfə doktoru)

*Hematologiya bölməsinə:*
Kiçik elmi işçi - 1.0

*Ünvan: H.Zərdabi küç., 79 «B»*
*Telefon: 537-08-11*

### «Respublika Psixiatriya Xəstəxanası» PHŞ

Tibb bacısı (qardaşı) - 10.0
Laborant - 2.0
Sosioloq - 2.0

*Ünvan: Ş.Hüseyn küç., 69/71*
*Telefon: 455-10-91*

### 1 nömrəli Uşaq Somatik Sanatoriyası

Tibb bacısı (qardaşı) - 3.0
Laborant - 2.0
Tibbi-statistik - 1.0

*Ünvan: M.Mirəliyev küç., 107*
*Telefon: 455-28-23*

### Lənkəran Şəhər Narkoloji Xəstəxanası

Tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: H.Z.Tağıyev küç., 202a*
*Telefon: (02525) 4-24-89*

### 7 nömrəli Uşaq Nevroloji Sanatoriyası

Müalicəvi bədən tərbiyəsi üzrə təlimatçı - 1.0
Masaj üzrə tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: Ramanı qəs., Zərdabi küç., 5*
*Telefon: 451-30-05*

### «Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutu» PHŞ

Rentgen-texnik - 2.0 (radiologiya ş.)
Tibb bacısı (qardaşı) - 1.0 (radiologiya ş.)
Tibb bacısı (qardaşı) - 5.0 (travmatologiya ş.)
Kiçik elmi işçi - 2.0 (travmatologiya ş.)
Tibb bacısı (qardaşı) - 3.0 (əl cərrahiyyəsi və yaralar ş.)
Kiçik elmi işçi - 3.0 (əl cərrahiyyəsi və yaralar ş.)
Kiçik elmi işçi - 2.0 (artroplastika və artroskopiya ş.)
Böyük elmi işçi - 1.0 (artroplastika və artroskopiya ş.)
Şöbə müdiri - 1.0 (Elm ştatı üzrə) (artroplastika və artroskopiya ş.)
Müalicəvi bədən tərbiyəsi üzrə təlimatçı - 2.0 (fizioterapiya ş.)
Provizor - 1.0 (aptek ş.)
Kiçik elmi işçi - 1.0 (elmi-tibbi informasiya ş.)

*Ünvan: A.Səhhət küç., 32*
*Telefon: 440-33-86*

### Nərimanov Rayon GEM

Feldşer-laborant - 1.0

*Ünvan: A.Heydərov küç., 26 «A»*
*Telefon: 567-20-34*

### Sabirabad Rayon GEM

Sanitar-feldşer - 1.0
Həkim-epidemioloqun köməkçisi - 3.0
Həkim-parazitoloqun köməkçisi - 1.0
Tibb bacısı (qardaşı) - 1.0
Tibbi-statistik - 1.0

*Ünvan: Azərbaycan pr.*
*Telefon: (02123) 5-10-18*

### Xətai Rayon GEM

Sanitar-feldşer - 1.0

*Ünvan: Ə.Axundov küç., 24*
*Telefon: 490-33-80*

### 2 nömrəli Klinik Psixiatriya Xəstəxanası

Tibb bacısı (qardaşı) - 2.0

*Ünvan: S.Rüstəm küç., 40*
*Telefon: 440-15-60*

### Salyan Rayon Psixiatriya Xəstəxanası

Tibb bacısı (qardaşı) - 1.0
Əczaçı - 1.0

*Ünvan: Şorsulu kəndi*

### Lənkəran Rayon Gigiyena və Epidemiologiya Mərkəzi

Sanitar-feldşer - 1.0 (Sanitariya-gigiyena şöbəsi)
Feldşer-laborant - 1.0 (Sanitariya-gigiyena laboratoriyası)
Həkim-epidemioloqun köməkçisi - 1.0 (Epidemiologiya şöbəsi)
Feldşer-laborant - 1.0 (Parazitologiya bölməsi)
Entomoloqun köməkçisi - 1.0 (Parazitologiya bölməsi)
Həkim-epidemioloqun köməkçisi - 2.0 (Dezinfeksiya bölməsi)

*Ünvan: 20 Yanvar küç., 64*
*Telefon: (02525) 4-25-23*

Baş redaktor:
N.MƏCİDOVA

Baş redaktorun müavini:
S.NƏBİYEVA

Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.

Təsisçi:
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər.*

*Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.
Qeydiyyat nömrəsi: B92

Ünvan: Mirəsədulla Mirqasımov küç., 1. Səhiyyə Nazirliyi, 2-ci mərtəbə, 249-cu otaq

Tel./faks: (012) 596-06-61

E-mail: tibbqazeti@health.gov.az

Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və «CBS polygraphic production» mətbəəsində çap olunmuşdur.

İndeks: 1065 Tiraj: 9000


MONTEFAR
Montelukast natrium 4/5/10 mq
Gündə 1 dəfə
●Ağ ciyərin funksiyasını yaxşılaşdırır
●Residivlərin tezliyini aşağı salır
●Həyat keyfiyyətini yaxşılaşdırır
●Bronxial astmanın proqressivləşməsinin və onun ağır formalarının inkişafının qarşısını alır
Sərbəst tənəffüsün yeni zəmanəti!
Biofarma


DESLORADIN
ANTİHİSTAMİN ANTİALLERGİK İLTİHABƏLEYHİNƏ
Allergiyaya yeni cavab!
Səbəbdən asılı olmayaraq bütün növ allergiyalarda təsir göstərməsi
Allergiyanın bütün mərhələlərində yüksək effektivlik
Təsirin tez başlanması (30 dəq. müd.)
Rahat qəbul qaydası: gündə 1 dəfə
ANTIHISTAMINIC
DESLORADIN
Syrup
150 ml
DESLORADİN 5
20 FILM COATED TABLETS
Biofarma


AVROMED
Mocom M10
Stomatoloji qurğu
Mocom
firması istehsalı olan
müxtəlif konfiqurasiyalı
stomatoloji qurğular
Mocom Firması avadanlıqlarının Respublikamızda yeganə distribyutoru Avromed Dentaldır
@avromed_company
@avromedcompany
avromed.az
info@avromed.az